RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 47 (8926) ÇƏRŞƏNBƏ, 2 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev Azərbaycanın gücünə güc qatır

## Ölkəmizin Cənubi Qafqazda şəriksiz lider və ən fəal aktor olduğu təsdiqlənib

Mövcudluğu tarixində heç zaman indiki kimi güclü, güvənli, istiqrarlı olmayan Azərbaycan cəmi 31 ildə bu cür imkanlara malik olan dövlətə çevrilib. Lakin buna baxmayaraq dövlətin daha da qüdrətlənməsi, dünyada söz sahibinə çevrilməsi istiqamətində düşünülmüş və tam müstəqil siyasət yürüdən İlham Əliyev milli maraqlara əsaslanan siyasəti ilə Cənubi Qafqazda yeni reallıqlar yarada bilib. Bu gün isə həmin reallıqlar əsasında yeni əməkdaşlıq formatları yaranır.

Bu əməkdaşlıq formatlarının müəllifi kimi çıxış edən Azərbaycanın ötən ilin iyununda qardaş Türkiyə ilə Şuşa Byannaməsi, bu il fevralın 22-də isə Rusiya ilə müttəfiqlik bəyannaməsi imzalaması ölkələr arasında müttəfiqlik münasibətlərinin inkişafında, əlaqələrdə yeni mərhələnin başlanmasında əhəmiyyətli rol oynayacaq.

### Geosiyasi, geoiqtisadi baxımdan Azərbaycanın maraqlarına cavab verən sənəd

Müstəqilliyinin bərpasından ötən 31 ildə böyük uğurlar qazanan Azərbaycan bu qısa müddətdə qüdrətli, dünya miqyasında etibarlı tərəfdaş dövlətə çevrilib. Bunun yeganə səbəbi isə əlbəttə ki, İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətdir. Ölkəyə rəhbərlik etdiyi 19 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır.

Bu qısa zaman ərzində Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda, ümumilikdə Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən İlham Əliyevin yürütdüyü siyasət onun ölkənin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir. İlham Əliyev prezidentlik fəaliyyətinin qürurverici hesabatını söyləyərkən bir məqamı çox doğru vurğulayır ki, Azərbaycanın inkişaf yolu başqa ölkələr üçün işıq yoludur.

Son günlər ölkənin siyasi gündəmini zəbt edən məsələ isə Rusiya ilə Azərbaycan arasında imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"dir.

İlham Əliyevlə Vladimir Putinin imzaladıqları bu tarixi sənəd birmənalı olaraq təqdir edilməlidir. Çünki müttəfiqlik bəyannaməsinin 43 bəndini nəzərdən keçirdikdə aydın olur ki, Azərbaycan-Rusiya əməkdaşlıq və tərəfdaşlıq münasibətləri yalnız yüksələn xətlə inkişaf edəcək. Belə vəziyyət öz növbəsində mövcud geosiyasi, geoiqtisadi reallıqlar baxımından hər iki dövlətin maraqlarına tam cavab verir.

Bəyannamənin bəndlərində də açıq şəkildə qeyd edilir ki, Rusiya və Azərbaycan öz münasibətlərini müttəfiqlik, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar. Rusiya və Azərbaycan öz milli maraqlarının müdafiəsinə yönəlmiş müstəqil xarici siyasət yürüdürlər. Tərəflər milli maraqlara cavab verən və üçüncü ölkələrə qarşı yönəlməyən ikitərəfli hərbi-siyasi əməkdaşlığı inkişaf etdirirlər.

Ardı 3-cü səh.

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Od çərşənbəsi münasibətilə paylaşım edib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Od çərşənbəsi münasibətilə fotolar və video paylaşıb.



AZƏRTAC xəbər verir ki, paylaşılan videoda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Od çərşənbəniz mübarək".

## Kadr islahatlarında başlıca tələb

### Prezident İlham ƏLİYEV: "Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir"

Prezident İlham Əliyev bir neçə gün əvvəl yeni təyin olunan üç rayonun icra başçılarını videoformatda qəbul edərkən çıxışında onlara vətəndaşların rəğbətini qazanmağı və islahatlarda aparıcı mövqe tutmağı tapşırdı.

Dövlət başçısı qısa tezislərlə yeni təyinat alanlara izah etdi ki, ilk növbədə rayonların vəziyyəti dərindən və elmi əsaslarla təhlil edilməli, müsbət tendensiyalar dəyərləndirilməklə yanaşı, mövcud problemlər çözülməli, onların həlli yolları tapılmalıdır. Xatırlanmışdır ki, 2004-cü ildən üzübəri qəbul edilən müxtəlif dövlət proqramları regionların inkişafında mühüm rol oynamış, əsas vəzifələr icra olunmuşdur. Uğurlarımız daim beynəlxalq reytinq agentliklərinin diqqət mərkəzindədir. Ümumi inkişaf indeksinə görə ölkəmizin adının qabaqcıl yerlərdə çəkilməsi adi hala çevrilmişdir.

Prezident İlham Əliyev çıxışında yorulmayan islahatçı ruhu ilə əsas diqqətini görülən işlərə yox, gündəmə gələn problemlərə fokusladı: "Bakı şəhəri gördüyümüz işlər nəticəsində dünyanın ən gözəl şəhərlərinin birinə çevrilib. Bakıya gələn qonaqlar və əlbəttə ki, yerli sakinlər bunu məmnunluqla qeyd edirlər. Ancaq əgər biz desək ki, Bakının bütün problemləri həll edilib, əlbəttə ki, səhv edərik. Bakı doğrudan da, dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq Bakının bütün yerləri heç də bu meyarlara cavab vermir".

Ardı 3-cü səh.

## Azərbaycan Ukraynada olan soydaşlarımıza sahib çıxır

### Onların digər ölkələrdən keçməklə vətənə qayıtmaları təmin olundu

Azərbaycanda dövlət siyasətinin mərkəzində insan faktorunun dayanmasını çoxsaylı faktlarla göstərmək olar.

Bu sırada xüsusən əvvəldən proqnozlaşdırılması mümkün olmayan hadisələr zamanı və digər situasiyalarda dövlətimizin öz vətəndaşlarına yönəlik çevik reaksiyası xüsusilə qeyd olunmalıdır. Prezident İlham Əliyev baş vermiş ekstremal hadisələr zamanı insanların maraqlarının qorunmasını ön plana çəkib, vətəndaş mənafeyinə həssas münasibətin nümunəsini yaradıb.

### İnsan amilini uca tutan siyasət

Son günlər Ukraynada baş verən hadisələrlə əlaqədar bu ölkədə olan vətəndaşlarımızın Azərbaycana qaytarılması üçün görülən işlər bir daha göstərdi ki, dövlətimiz insan amilinə hər zaman öndə olan məsələ kimi yanaşır.

Azərbaycanla Şərqi Avropanın böyük dövlətlərindən olan Ukrayna arasında yüksək siyasi, iqtisadi əlaqələrlə yanaşı, tarixi ənənələrə, qarşılıqlı anlaşmaya əsaslanan etimadlı münasibətlər mövcuddur. Təsadüfi deyil ki, iki xalq arasında daim dostluq münasibətləri hökm sürüb. Təbii ki, əlaqələrin inkişafında hələ sovet dövründə formalaşmış ənənəvi münasibətlərin böyük rolu var. SSRİ-nin dağılmasından sonra isə həm Azərbaycan, həm də Ukrayna üçün ağır sosial-iqtisadi çətinliklərin meydana çıxmasına baxmayaraq, qarşılıqlı işgüzar əməkdaşlıq ənənəsi qorunub saxlanıldı. İki dövlət arasında dəniz və quru sərhədlərinin olmamasına baxmayaraq, tərəfdaşlıq münasibətləri durmadan genişlənib.

Ardı 3-cü səh.

## İrəvan hakimiyyətdaxili çəkişmələrlə çalxalanır

### Korrupsiya Ermənistanın bütün həyat sferalarında dərin kök salıb

Son dövrdə Ermənistanda narazılıq və qarşıdurma həddinin daha da yüksəlməsi, keçmiş hərbi xunta ilə mövcud hakimiyyət arasında ziddiyyətlərin bir qədər də kəskinləşməsi müşahidə olunur. Müxalifət təmsilçiləri qeyd edirlər ki, belə vəziyyətdə ölkəni daha böyük təhlükələr gözləyir.

Bu vəziyyətdə hakimiyyət daxilində çəkişmələr ölkə üçün əlavə problemlər yaradır. Erməni politoloqları hesab edirlər ki, yaxın vaxtlarda Ermənistanın iqtidar partiyası daxili çəkişmələrlə çalxalanacaq. Prezident seçkilərindən sonra hakim partiyada vəzifələr uğrunda çəkişmələr daha da güclənəcək, digər tərəfdən isə Nikol Paşinyanın ətrafındakı insanların peşəkarlığına görə deyil, sadiqlik prinsipi üzrə seçilməsi ciddi fəsadlar yaradacaq.

"4rd.am" saytı yazır ki, Paşinyan hökumətinin daxilində çəkişmələr getdikcə artır ki, bu da sərmayədarları ölkədən qaçırır. Müəllif qeyd edir ki, "məxməri inqilab" və müharibədəki məğlubiyyətdən sonra Ermənistanda oliqarxlar kənarlaşdırılır və bir adamın hakimiyyəti bərqərar olur: "Paşinyanın özü də partiyasının heç bir ideoloji əsaslara söykənmədiyini dəfələrlə etiraf edib. Bu isə, öz növbəsində, yüksək vəzifələrə təyinatların baş nazirə yaxınlıq prinsipi ilə həyata keçirilməsinə səbəb olur. Bu cür şəraitdə hakimiyyətdaxili mübarizənin güclənməsi labüddür. Paşinyanın ölkənin rayonlarında olan bəzi tərəfdarları həm yüksək nüfuza, həm də silahlı dəstələrə malikdirlər".

Bunların fonunda Ermənistanın sosial-iqtisadi sahədə üzləşdiyi problemlər daha geniş miqyas alır.

Ardı 4-cü səh.

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında balıqçılıq sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2021-ci il noyabrın 11-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında balıqçılıq sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2022-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədənçilik sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2021-ci il dekabrın 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədənçilik sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2022-ci il*

## Azərbaycanın xarici işlər naziri və Birləşmiş Krallığın Avropa məsələləri üzrə naziri regional məsələləri müzakirə ediblər

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun martın 1-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik ölkələri və İnkişaf Ofisində Avropa məsələləri üzrə dövlət naziri Ceyms Kleverli ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, tərəflər regional məsələlər, xüsusilə Ukraynadakı vəziyyət ilə bağlı fikir mübadiləsi aparıblar.

Nazirlər ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələlərini, habelə qarşılıqlı maraq doğuran digər mövzuları müzakirə ediblər.

## Təhsil naziri gənclərin xaricdə təhsili ilə bağlı sualları cavablandırıb

Martın 1-də təhsil naziri Emin Əmrullayevin iştirakı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" ilə bağlı mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, təhsil naziri dövlət proqramı haqqında ətraflı məlumat verib. Emin Əmrullayev bildirib ki, proqram çərçivəsində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2 min nəfərədək Azərbaycan vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil alması təmin ediləcək. Dövlət proqramının prioritet ixtisas sahələrini qeyd edən təhsil naziri proqram çərçivəsində xaricdə oxumaq istəyənlərin artıq indidən müraciət edə biləcəyini vurğulayıb. Qeyd edib ki, xaricdə təhsil almaq üçün göndəriləcək gənclərin seçimi zamanı onların digər həmyaşıdlarından istedad və bacarığı ilə fərqləndiyinə diqqət ediləcək. Həmçinin seçim zamanı magistratura səviyyəsi üzrə namizədlərə üstünlük veriləcək.

Emin Əmrullayev deyib ki, dövlət proqramının tələb olunan alətlər, proseslər və digər vasitələrlə uğurlu icrası üçün onun beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar üzrə monitorinqi və qiymətləndirilməsi aparılacaq. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritetlə bağlı gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaq.

Nazir vurğulayıb ki, əsas məqsəd bu təqaüddən ölkəmizin inkişafına töhfə vermək istəyən gənclərin yararlanmasıdır.

Qeyd edək ki, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilib. Dövlət proqramının əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, onların Azərbaycan Respublikasının gələcək inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir.

# Dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyətinin işğaldan azad olunmuş ərazilərə səfəri başlayıb











**Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırığı ilə martın 1-də Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyətinin işğaldan azad olunmuş ərazilərə səfəri başlayıb.**

AZƏRTAC xəbər verir ki, məqsəd dövlət başçısı tərəfindən müəyyən edilmiş tapşırıqların icrası ilə yerində tanış olmaq, müxtəlif dövlət qurumlarının həyata keçirdiyi genişmiqyaslı infrastruktur layihələrinin, tikinti, bərpa, quruculuq və abadlaşdırma işlərinin gedişatını nəzərdən keçirməkdir.

Səfər çərçivəsində Füzuli Beynəlxalq Hava Limanına, "Füzuli" yarımstansiyasına, Horadiz-Ağbənd avtomobil və dəmir yollarının tikinti sahəsinə, minatəmizləmə əməliyyatlarına, "Araz Vadisi İqtisadi Zonası"nın Sənaye Parkına, Zəngilan Beynəlxalq Hava Limanının tikintisinə, Zəngilan rayonunun Ağalı kəndinə və s. yerlərə baxış keçiriləcək.

Yekunda Şuşa şəhərində aidiyyəti dövlət qurumlarının rəhbərlərinin iştirakı ilə müşavirənin keçirilməsi nəzərdə tutulur.

## Milli Məclisdə ombudsmanın məruzəsi dinləniləcək

Martın 1-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib.

İclası açan İnsan hüquqları komitəsinin sədri Zahid Oruc məlumat verib ki, gündəliyə bir məsələ - Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2021-ci il üzrə məruzəsinin müzakirəsi daxil edilib. Məsələ ilə bağlı çıxışında komitə sədri Azərbaycanda Ombudsman təsisatının keçdiyi yola diqqət çəkib.

Zahid Oruc Vətən müharibəsində Azərbaycanın qələbəsinin insan hüquq və azadlıqlarının təminatı sahəsində qarşıya çıxardığı çağırışlardan söz açıb, şəhid ailələri və müharibə veteranlarının hüquqlarının təminatının diqqətdə saxlanmasının vacibliyini vurğulayıb.

Bəzi beynəlxalq təşkilatların Azərbaycanla bağlı qeyri-obyektiv mövqe sərgiləməsinə toxunan komitə sədri bu istiqamətdə Ombudsman təsisatının beynəlxalq nüfuzundan yararlanmağın faydalı olacağına diqqət çəkib.

İclasda İnsan hüquqları komitəsi sədrinin müavini Tahir Kərimli, komitə üzvləri Hikmət Məmmədov, Razi Nurullayev, Naqif Həmzəyev, Fazil Mustafa, Tural Gəncəliyev, Elman Nəsirov, Bəhruz Məhərrəmov müzakirəyə çıxarılan hesabatla bağlı fikirlərini bildirib, cəmiyyətdə bu instituta etimadın yüksəldiyini qeyd ediblər. Millət vəkilləri Ombudsman təsisatının 44 günlük Vətən müharibəsində aktiv fəaliyyətinə toxunaraq onun davam etdirilməsinin və Ermənistan tərəfindən azərbaycanlıların tapdanan hüquq və azadlıqlarının diqqətdə saxlanılmasının vacibliyini vurğulayıblar. Deputatlar məruzədə irəli sürülən təkliflər, Ombudsman təsisatının gələcək fəaliyyət istiqamətləri, insan hüquq və azadlıqlarının təminatının aktual məsələləri ilə bağlı rəylərini səsləndiriblər.

Sonra Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı məruzə ilə bağlı deputatların qeydlərinə izahat verib, sorğularını cavablandırıb.

Müzakirələrin sonunda məruzə səsə qoyularaq Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

## «Qida təhlükəsizliyi haqqında» yeni qanun layihəsi hazırlanıb

### Sənəd Milli Məclisin Aqrar siyasət komitəsinin iclasında ilk oxunuşa çıxarılıb

Martın 1-də Milli Məclisin Aqrar siyasət komitəsinin iclası keçirilib. Komitənin sədri Tahir Rzayev bildirib ki, iclasın gündəliyinə "Qida təhlükəsizliyi haqqında" qanun layihəsi (birinci oxunuş) daxildir. Qida təhlükəsizliyi problemi bu gün dünyada öz aktuallığını saxlayır və bəşəriyyət üçün problem olaraq qalır.

Prezident İlham Əliyev tərəfindən 10 fevral 2017-ci ildə imzalanmış "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmana əsasən, bu sahədə müvafiq tədbirlər həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yaradılıb, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" Saziş imzalanıb. Görülən tədbirlərin davamı olaraq bu sahəni tənzimləyən qanun layihəsi hazırlanıb.

Komitə sədri müzakirəyə çıxarılan qanun layihəsinin əhəmiyyətindən söz açaraq bildirib ki, bu sənəd Azərbaycan Respublikasının ərazisində insanların və heyvanların həyat və sağlamlığının, habelə istehlakçıların hüquqlarının müdafiəsi üçün qida və yem məhsullarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı münasibətləri tənzimləyir.

İclasda çıxış edən Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı" barədə danışıb. O, proqramın həyata keçirilməsi istiqamətində görülən işlərdən bəhs edib.

Sonra Qoşqar Təhməzli "Qida təhlükəsizliyi haqqında" qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, idxal olunan qida məhsullarına, habelə ölkəmizdə qida məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi mərhələlərinə şamil olunur.

Qanunda göstərilir ki, yerli qida və yem məhsullarının rəqabət qabiliyyətliliyinin və ixrac potensialının artırılması, onların ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası sahəsində sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması sahələri dövlət tərəfindən tənzimlənir.

Qanun layihəsində qida təhlükəsizliyi sahəsində dövlətin vəzifələri, əsas prinsipləri, istehlakçıların hüquqlarının müdafiəsi və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların hazırlanması və qəbulu ilə bağlı məsələlər öz əksini tapıb.

Sənəddə, eyni zamanda qida təhlükəsizliyi sahəsində tələblər, o cümlədən qida və yem məhsullarının, xüsusi təyinatlı qida məhsullarının və bioloji aktiv qida maddələrinin, həmçinin zənginləşdirilən qida məhsullarının təhlükəsizliyi və digər bir sıra məqamlara dair tələblər ehtiva olunub.

Həmçinin layihədə qida təhlükəsizliyi sahəsində qeydiyyat, təsdiq, sertifikatlaşdırma və izləmə məsələləri, qida və yem məhsullarının təhlükəsizliyinə dövlət nəzarətinə aid, həmçinin qida subyektlərinin hüquq və vəzifələri kimi məsələləri əhatə edən müddəalar yer alıb.

İclasda kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, Dövlət Gömrük Komitəsinin sədr müavini Cavad Qasımov, İqtisadiyyat Nazirliyinin (Antiinhisar) Standartlaşdırma, texniki tənzimləmə və sertifikatlaşdırma şöbəsinin müdiri İlqar Həsənov, Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov, Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Bəşir Quliyev qanun layihəsi barədə fikirlərini söyləyiblər, qeyd və təkliflərini veriblər.

Sonra iclasda deputatlardan Eldar İbrahimov, Cavanşir Paşazadə, Novruzəli Aslanov, Emin Hacıyev, İqbal Məmmədov, Azər Badamov, Müşfiq Cəfərov, Aydın Hüseynov və Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov çıxış edərək qida məhsullarının təhlükəsizliyi barədə əhalinin maarifləndirilməsinin vacibliyindən, qida təhlükəsizliyinin təmin edilməsinin əhəmiyyətindən söz açıblar, fikir və təkliflərini bildiriblər.

Komitə iclasında müvafiq dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

İclasın sonunda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## *Britaniyalı parlamentarilər:* "Xocalı soyqırımı Azərbaycan tarixinin ən faciəvi səhifələrindən biridir"

Birləşmiş Krallıq parlamentinin İcmalar və Lordlar palatalarından olan 12 üzvü Xocalı soyqırımının 30-cu ildönümü münasibətilə birgə bəyanatla çıxış ediblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, indiyədək Birləşmiş Krallıq parlamentarilərinin Xocalı faciəsinə dair qəbul etdikləri ilk birgə təşəbbüs olan bu bəyanatda qətliamın 30-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına, yaxınlarını itirən həmvətənlərimizə başsağlığı verilib, xalqımızla həmrəylik ifadə edilib.

Bəyanatda müharibənin gedişində ən irimiqyaslı mülki itkilərlə səciyyələnmiş Xocalı qətliamı parlamentarilər tərəfindən Azərbaycanın yaxın tarixinin ən faciəvi səhifələrindən biri kimi xarakterizə edilib. Həmçinin Avropa İnsan Haqları Məhkəməsinin Xocalıda baş verənləri müharibə cinayəti və bəşəriyyətə qarşı cinayət kimi xarakterizə edən 2010-cu il 22 aprel tarixli qərarı xatırlanaraq, gələcəkdə belə faciələrin qarşısını almaq məqsədilə beynəlxalq humanitar hüququn möhkəmləndirilməsinin zəruriliyi vurğulanıb.

Parlamentarilər münaqişənin başa çatmasını alqışlayaraq aparılan danışıqların Azərbaycan ilə Ermənistan arasında münasibətlərin tam normallaşmasına gətirib çıxaracağına ümidvar olduqlarını qeyd ediblər.

Bəyanatda həmçinin post-münaqişə mərhələsində ərazilərin minalardan təmizlənməsi, kommunikasiya-nəqliyyat əlaqələrinin bərpası, sərhədlərin delimitasiyası və demarkasiyası kimi çağırışların mövcudluğu qeyd olunub, bu məsələlərin həlli, xüsusilə də ərazilərin minalardan təmizlənməsi istiqamətində Birləşmiş Krallıq hökumətinə çağırış edilib.

## TÜRKPA Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyanat yayıb

Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyanat yayıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, bəyanatda bəşəriyyət tarixinin ən qanlı cinayətlərindən biri olan Xocalı qətliamının 30-cu ildönümü ilə əlaqədar soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilib, Azərbaycan xalqına və hökumətinə başsağlığı verilib.

Bildirilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərinə edilən hücum nəticəsində misli görünməmiş qətliam törədilib, yaşlılar, qadınlar, uşaqlar da daxil olmaqla yüzlərlə günahsız Azərbaycan vətəndaşı vəhşicəsinə qətlə yetirilib, yaralanıb və əsir götürülüb. Bu qətliam tarixə ən qəddar və qeyri-insani cinayətlərdən biri kimi daxil olub. Üzərindən illər keçsə də, Xocalı qətliamı qurbanlarının xatirəsi unudulmur.

Bəyanatda dünya miqyasında həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyasında TÜRKPA-nın Azərbaycan hökumətinə dəstəyi ifadə olunub.

Qeyd edilib ki, Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində Ermənistan tərəfindən işğal edilmiş torpaqlarını azad edərək şanlı zəfər qazanıb və tarixi ədaləti bərpa edib. Bütün türk dünyasının qürur mənbəyi olan böyük zəfər Azərbaycan xalqının qələbə əzminin parlaq təcəssümüdür.

# İlham Əliyev Azərbaycanın gücünə güc qatır

## Ölkəmizin Cənubi Qafqazda şəriksiz lider və ən fəal aktor olduğu təsdiqlənib



*Əvvəli 1-ci səh.*

Rusiya və Azərbaycan tərəflərdən birinin fikrincə sülhə təhlükə yarada bilən, sülhü pozan və ya tərəflərdən birinin təhlükəsizlik maraqlarına təsir edən vəziyyət yarandığı, eləcə də bu cür vəziyyətin yaranması təhdidi olduğu təqdirdə onun nizamlanması məqsədilə təxirəsalınmaz məsləhətləşmələrin aparılmasına hazırlıqlarını ifadə edirlər.

Ümumiyyətlə, Azərbaycan dövlətinin xarici siyasətində qonşularla əlaqələrin yeni prioritetlər üzrə inkişafı əsas yer tutur. Azərbaycan-Rusiya münasibətləri də tarixi köklərə malikdir. Qarşılıqlı səfərlər və bu səfərlər çərçivəsində imzalanan sənədlər münasibətlərimizin inkişafında yeni mərhələnin başlanmasında stimulverici amildir. İki qonşu ölkənin əlaqələrinin yüksələn xətlə inkişafında, həmçinin dövlət başçılarının şəxsi münasibətləri, qarşılıqlı yüksək etimad mühiti əhəmiyyətli rol oynayır.

Bu gün Qoşulmama Hərəkatının üzvü və onun fəaliyyətdə olan sədri kimi Azərbaycan tam neytral, milli maraqlarına uyğun çoxşaxəli müstəqil xarici siyasət yürüdür və respublikamızın digər ölkələrlə münasibətləri heç vaxt üçüncü tərəfə qarşı yönəlməyib.

Prezident İlham Əliyev daim bu reallığı önə çəkir ki, hər bir ölkə üçün onun qonşuları ilə yaxşı münasibətlərinin qurulması çox vacib amildir. Azərbaycan o ölkələrdəndir ki, çox konstruktiv, düşünülmüş siyasət apararaq Ermənistan istisna olmaqla bütün qonşuları ilə gözəl münasibətlər qura bilib və dövlətimiz bu əməkdaşlıqdan maksimum faydalanır. Məlumdur ki, müasir dövrdə həm regional təhlükəsizliyin təmin olunması, həm də nəqliyyat, energetika, ticarət məsələlərinin uğurla həlli xeyli dərəcədə qonşularla münasibətlərin inkişaf səviyyəsindən asılıdır. Bu baxımdan əminliklə deyə bilərik ki, qədim dostluq və mehriban qonşuluq ənənələrinə söykənən Rusiya-Azərbaycan münasibətləri daim yüksələn xətt üzrə inkişaf edir.

### 245 sənəd, 3,4 milyard dollara çatan qarşılıqlı əmtəə dövriyyəsi

Bəyanatın digər bəndlərində iki ölkə arasında ticarət əlaqələrinin daha da yüksəlişi təsbit olunub. Ticarət-iqtisadi əlaqələrin davamlı artımının təmin edilməsi üçün vacib əhəmiyyəti olan Rusiya və Azərbaycan arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın işinə hərtərəfli yardım davam etdiriləcəkdir.

Həmçinin tərəflər davamlı inkişafa və hər iki dövlətin iqtisadi potensialından səmərəli istifadəyə böyük əhəmiyyət verərək iqtisadi islahatların həyata keçirilməsində qarşılıqlı fəaliyyət göstərəcək, iki ölkə arasında iqtisadi qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi məqsədilə 1 sentyabr 2018-ci ildə imzalanmış Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planının realizə edilməsinə, əmtəə və xidmətlərin sərbəst hərəkəti üçün əlverişli şəraitin yaradılmasına, eləcə də regional iqtisadi əməkdaşlığın irəlilədilməsinə yardımçı olacaqlar.

Bu bəyanat Rusiya ilə Azərbaycan arasında rəsmi diplomatik əlaqələrin 30 illiyinin tamam olduğu ildə imzalandı. Bu müddət ərzində iki ölkə arasında çox geniş müqavilə-hüquq bazası vardır. İndiyədək tərəflər arasında 245 sənəd imzalanıb.

Ötən onilliklər ərzində Rusiya-Azərbaycan əməkdaşlığı nəzərəçarpacaq dərəcədə möhkəmlənib və genişlənib, siyasi, iqtisadi və humanitar sahələrdə çoxsaylı konkret qarşılıqlı faydalı layihələrlə zənginləşib. Hər iki ölkə möhkəm dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və bir-birinin maraqlarının nəzərə alınması ənənələrinə əsaslanmaqla münasibətləri bundan sonra da hərtərəfli inkişaf etdirmək əzmindədir.

Təkcə 2021-ci ilin yekunlarına görə, qarşılıqlı əmtəə dövriyyəsi 16 faiz artıb və təqribən 3,4 milyard dollara çatıb, qarşılıqlı kapital qoyuluşunun ümumi həcmi isə 6 milyard dollar təşkil edir.

Rusiya-Azərbaycan hökumətlərarası komissiyası tezliklə növbəti iclasını keçirəcək. Həmçinin energetika, kənd təsərrüfatı və bir sıra sahələrdə kooperasiyanın inkişafı üzrə imkanların öyrənilməsi üçün Rusiya Azərbaycana işgüzar missiyalarını göndərməyi planlaşdırır. Bununla yanaşı, Rusiyanın biznes strukturları elektroenergetika sahəsində Azərbaycan ilə əməkdaşlıqda maraqlıdırlar, Azərbaycan elektrik şəbəkələrinin modernləşdirilməsinə, həmçinin bərpaolunan enerji mənbələri sahəsində olan layihələrə qoşulmağa hazırdır.

Sənayedə də səmərəli tərəfdaşlıq qurulub. Ötən il kommersiya və xüsusi təyinatlı avtomobillərin istehsalı üzrə "QAZ qrupu" ilə "Azərmaş"ın müştərək zavodu açılıb. Rusiyanın iştirakı ilə Azərbaycan dəmir yollarının və Bakı Metropoliteninin qatarları texniki cəhətdən yenilənir. Azərbaycanda "KamAZ" birgə servis mərkəzi tikilir.

Rusiya və Azərbaycan arasında tibb və əczaçılıq sahəsində də əməkdaşlıq aktivləşib. Ölkələrimiz koronavirus infeksiyasının yayılmasına qarşı mübarizədə tərəfdaşlar kimi qarşılıqlı fəaliyyət göstərirlər. Pandemiyanın ən kəskin dövründə Rusiyanın aparıcı tibb müəssisələrinin mütəxəssis briqadaları azərbaycanlı həkimlərə köməyə göndərilib. Respublikaya "Sputnik V" vaksinlərinin tədarükü təşkil olunub.

### Hərbi əməkdaşlıq gücləndiriləcək, münasibətlər tamamilə yeni mərhələyə yüksələcək

Bəyannamədə hərbi əməkdaşlıq məsələləri də öz əksini tapıb. Sənədin 3 bəndində göstərilir ki, tərəflər silahlı qüvvələr arasında əməliyyat və döyüş hazırlığı üzrə birgə tədbirlərin keçirilməsi də daxil olmaqla qarşılıqlı əlaqələri dərinləşdirəcək, eləcə də ikitərəfli hərbi əməkdaşlığın digər istiqamətlərini inkişaf etdirəcəklər.

Hərbi-texniki əməkdaşlığın yüksək səviyyəsini nəzərə almaqla müasir silah və hərbi texnika ilə təchiz olunma məsələləri, eləcə də bu sahədə maraq doğuran digər istiqamətlər üzrə qarşılıqlı fəaliyyət göstərirlər və bu proses davam etdiriləcək.

Həmçinin hər iki ölkə silahlar və hərbi texnika üçün texniki xidmət, təmir, müasirləşdirmə üzrə xidmət mərkəzlərinin yaradılması, eləcə də hərbi təyinatlı məhsulların müxtəlif növlərinin birgə istehsalının təşkili üzrə səylərini fəallaşdırırlar.

İmzalanan bəyannamə hər iki dövlətin milli maraqları baxımından olduqca aktualdır. 43 maddədən ibarət olan, hərbi-siyasi və sosial-iqtisadi, humanitar sahələri nəzərdə tutan belə bir mühüm sənədin imzalanması Rusiya-Azərbaycan münasibətlərini tamamilə yeni bir mərhələyə qaldıracaq. Bu müttəfiqlik yeni dünya kontekstində Azərbaycanı öz müttəfiqləri ilə birlikdə güc mərkəzlərindən birinə çevirəcək və uzunmüddətli sülhə gətirib çıxaracaq.

Moskva Bəyannaməsinin bütün müddəaları Azərbaycanın milli maraqlarına uyğundur.

Türkiyə Respublikası ilə ötən il imzalanan Şuşa Bəyannaməsi kimi, Moskva Bəyannaməsi də Azərbaycanın müstəqilliyinə, suverenliyinə, təhlükəsizliyinə növbəti dəstəkdir. Bununla da Azərbaycan postsovet məkanında bütün güc mərkəzlərindən öz müstəqil siyasətinə, təhlükəsizliyinə zəmanət qazanan yeganə ölkəyə çevrilir.

Sənədi dəyərləndirən Prezident İlham Əliyev vurğulayıb ki, bəyannamə regionda yeni reallıqlar, yeni imkanlar yaradacaq. Rusiya və Azərbaycan birgə səyləri ilə Qafqazda sülhün, Xəzər regionunda və Avrasiya məkanında əməkdaşlığın möhkəmləndirilməsi işinə bundan sonra da həlledici töhfə verəcəklər.

Beləliklə, regionun ən qüdrətli dövləti olan Azərbaycan daha bir müttəfiqi ilə mühüm sənəd imzalayaraq gücünə güc qatdı. Regionda və dünyada gedən proseslər fonunda Azərbaycan postsovet məkanında yeganə ölkədir ki, dünyanın bütün güc mərkəzlərindən öz müstəqil siyasətinə, təhlükəsizliyinə zəmanət qazanıb. Bu, İlham Əliyev diplomatiyasının növbəti uğurudur. 30 illik Qarabağ həsrətinə son qoyan, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən qalib komandan siyasət meydanında da qələbələri sıralayır. Əminliklə demək olar ki, Azərbaycan İlham Əliyevlə daha möhtəşəm gələcəyə doğru inamla addımlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Xarici İşlər Nazirliyi nazirliyin və aidiyyəti diplomatik nümayəndəliklərin Ukraynadakı vəziyyətlə əlaqədar qaynar xətləri barədə məlumat yayıb

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi nazirliyin və aidiyyəti diplomatik nümayəndəliklərin Ukraynadakı vəziyyətlə əlaqədar fəaliyyət göstərən qaynar xətləri barədə məlumat yayıb.

Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ukraynadakı vəziyyətlə əlaqədar bu ölkədə daimi və müvəqqəti yaşayan, səfərdə olan Azərbaycan Respublikasının vətəndaşlarına müraciət edərək onlardan hərbi qüvvələrin cəmləşdiyi və hərbi obyektlərin yerləşdiyi ərazilərdən uzaq olmalarını tövsiyə edir.

Vətəndaşlarımıza ehtiyac olmadığı təqdirdə evlərində və ya güvənli yerlərdə qalmaları və səyahətlərdən çəkinmələri məsləhət görülür.

Məlumat verildiyi kimi, ciddi təhlükə ilə üzləşmiş Azərbaycan vətəndaşları Ukrayna ərazisini Moldova, Polşa, Slovakiya, Macarıstan və Rumıniya istiqamətlərində tərk edə bilərlər. Vətəndaşlarımız həmçinin Rumıniya ərazisindən tranzit olaraq Bolqarıstan Respublikası ərazisi vasitəsilə Türkiyəyə, oradan isə Azərbaycana səfər edə bilərlər.

Yaranmış suallarla bağlı zəruri məlumatın verilməsi üçün Xarici İşlər Nazirliyi ilə aşağıdakı əlaqə vasitələri ilə əlaqə saxlanıla bilər:

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin qaynar xətləri:**

Telefon: +994505748595
+994506725868
+994125969422
+994125969301
Elektron poçt: **mkon3@mfa.gov.az**

Eyni zamanda aşağıdakı əlaqə vasitələri ilə Azərbaycan Respublikasının xarici ölkələrdəki aidiyyəti diplomatik missiyaları ilə əlaqə saxlanıla bilər:

**Azərbaycan Respublikasının Ukraynadakı səfirliyi (Kiyev şəhəri):**
Telefon: +380 73 5050000
Elektron poçt: **kiev@mission.mfa.gov.az**

**Azərbaycan Respublikasının Xarkov şəhərindəki fəxri konsulluğu:**
Telefon: (+38057) 7000531
Elektron poçt: **info.azconsulate@gmail.com**

**Azərbaycan Respublikasının Moldovadakı səfirliyi:**
Telefon: +373 781 81 361, +373 789 91 849, +373 222 32 277
Elektron poçt: **chisinau@mission.mfa.gov.az**



**Azərbaycan Respublikasının Polşadakı səfirliyi:**
Telefon: +48 576 900 183, +48 22 718 30 70
Elektron poçt: **consul_warsaw@mission.mfa.gov.az**

**Azərbaycan Respublikasının Macarıstandakı səfirliyi**
Telefon: +36300901033 (telefonla zənglər üçün),
+994552999012 (WhatsApp vasitəsilə zənglər üçün)
Elektron poçt: **budapest@mission.mfa.gov.az**

**Azərbaycan Respublikasının Slovakiyada akkreditə olunmuş səfirliyi**
Telefon: +43 676 844 509 733
Elektron poçt: **vienna@mission.mfa.gov.az**

**Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyi:**
Telefon: +407 487 77744, +407 409 90079
Elektron poçt: **bucharest@mission.mfa.gov**

**Azərbaycan Respublikasının Bolqarıstandakı səfirliyi:**
Telefon: +359895002732
Elektron poçt: **sofia@mission.mfa.gov.az**

**Azərbaycan Respublikasının Türkiyədəki səfirliyi (Ankara şəhəri):**
Telefon: +905550310007
Elektron poçt: **ankara@mission.mfa.gov.az**

**Azərbaycan Respublikasının Türkiyənin İstanbul şəhərindəki baş konsulluğu**
Telefon: +905441040111
Elektron poçt: **istanbul@mission.mfa.gov.az**

# Azərbaycan Ukraynada olan soydaşlarımıza sahib çıxır

## Onların digər ölkələrdən keçməklə vətənə qayıtmaları təmin olundu

*Əvvəli 1-ci səh.*

Münasibətlərin beynəlxalq əməkdaşlıqdan tutmuş iqtisadi və hərbi sahələrə qədər geniş spektri əhatə etməsi, müxtəlif sahələrdə yüzdən artıq sənədin imzalanması da bunu təsdiq edir.

Elə bu səbəbdəndir ki, Ukraynada böyük azərbaycanlı icması var. Soydaşlarımız siyasi sferadan tutmuş bu ölkənin iqtisadi, mədəni həyatına qədər olduqca fəal iştirak edirlər. Bunlarla yanaşı, Ukrayna hər zaman Azərbaycan vətəndaşları üçün təhsil və biznes üçün cəlbedici olub. Ukrayna ali məktəblərində xeyli azərbaycanlı tələbə təhsil alır, Azərbaycandan bu ölkəyə meyvə və tərəvəz ixrac olunur. Habelə həmyerlilərimiz Ukraynada müxtəlif sahələrə sərmayə yatırıblar. Ukraynanın dünyada məşhur olan sanatoriya və kurortları azərbaycanlılar üçün də hər zaman cəlbedici olub.

### Dövlət hər zaman öz vətəndaşının yanındadır

Buna görə Ukraynada xeyli Azərbaycan vətəndaşının olması tamamilə təbiidir. Burada baş verən hadisələrlə əlaqədar hava məkanının bağlanmasına, o cümlədən yollarda hərəkətin təhlükəli olmasına görə onların vətənə qayıtmasında bir sıra çətinliklər meydana çıxıb. Lakin hər zaman öz vətəndaşlarının yanında olan Azərbaycan dövləti Ukraynada olan soydaşlarımızı da darda qoymadı. Artıq bir neçə gündür ki, onların vətənə qayıtmaları üçün müxtəlif tədbirlər həyata keçirilməkdədir.

Ukraynadakı vəziyyətlə əlaqədar bu ölkəni tərk edərək Rumıniyaya keçən bir qrup Azərbaycan vətəndaşının "Azərbaycan Hava Yolları"nın təşkil etdiyi çarter reysi ilə təxliyəsi həyata keçirilib və ümumilikdə 176 vətəndaşımız Azərbaycana geri dönüb. Bu yolla vətəndaşlarımızın təxliyəsi davam etdiriləcək.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ukraynadakı vəziyyətlə bağlı bu ölkə ərazisində daimi və müvəqqəti yaşayan vətəndaşlarımızla bağlı məlumatında qeyd olunur ki, onların qonşu ölkələrdən Moldova, Polşa, Slovakiya, Macarıstan, habelə Rumıniya ərazisinə keçidi davam edir. Son məlumata əsasən, Ukraynada hərbi əməliyyatların başlanmasından sonra qonşu ölkələrdən Moldovaya 950, Polşaya 447, Macarıstana 17, Rumıniyaya 200, Slovakiyaya isə 13 nəfər vətəndaşımız daxil olub. Bu dövlətlərlə əldə edilmiş razılıq əsasında Azərbaycan vətəndaşlarının tranzit keçidi üçün viza tələbi müvəqqəti olaraq götürülüb. Vətəndaşlar tərəfindən yalnız səyahət sənədi təqdim edilir, COVID-19 pasportu və PCR testinin neqativ nəticəsi mütləq şəkildə tələb olunmur.

Bolqarıstan da Azərbaycan vətəndaşlarının Ukrayna ərazisini tərk etməsini nəzərə alaraq, onlara münasibətdə ölkə ərazisindən tranzitlə keçmək üçün müvəqqəti olaraq viza tələbini ləğv edib. Vətəndaşlarımız Rumıniya vasitəsilə Bolqarıstana, oradan isə Türkiyə ərazisinə keçməklə Azərbaycana qayıda bilərlər.

Azərbaycan dövləti soydaşlarımızın Ukraynadan təxliyəsinə operativ və çevik reaksiya verməklə, onları darda qoymamaqla öz vətəndaşının taleyinə biganə qalmadığını növbəti dəfə nümayiş etdirdi. Bu, bir daha onu göstərdi ki, dövlətimiz hər zaman öz vətəndaşlarının yanındadır və baş verən istənilən hadisə zamanı çətin vəziyyətlərdə olan insanlarımızı tək qoymur, dəstəyini onlardan əsirgəmir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın Qahirədəki səfirliyi Ukraynadan Misir kurortlarına gəlmiş vətəndaşlarımıza müraciət edib

Azərbaycanın Misirdəki səfirliyi Ukrayna ərazisindən Şarm əl-Şeyx və Hurqada kurort mərkəzlərinə istirahətə gəlmiş vətəndaşlarımıza müraciət edib. Səfirliyin konsulluq şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Ukraynadan gəlmiş və həmin ölkəyə qayıtmaq imkanı olmayan Azərbaycan vətəndaşlarının Vətənə qayıtması üçün bütün tədbirlər görüləcək. Diplomatik nümayəndəliyimiz onlardan konsulluq şöbəsində fəaliyyət göstərən "qaynar xətt"ə müraciət etməyi xahiş edib.

# Kadr islahatlarında başlıca tələb

## Prezident İlham ƏLİYEV: "Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir"

*Əvvəli 1-ci səh.*

Dövlət başçısının tələbi belədir ki, paytaxt da, regionlar da eyni qaydada inkişaf etməli, quruculuq işlərinin aparılmasında bir rayon digərindən fərqlənməməlidir. Yeni təyinat alan icra başçılarından tələb olunur ki, insanlarla daim təmas qursunlar, laqeydlik göstərib özlərini cəmiyyətdən təcrid etməsinlər: "Çünki hər bir dövlət məmuru Prezident başda olmaq şərti ilə xalqın xidmətçisidir".

Dövlət başçısı son illərdəki təyinatlarla bağlı keçirdiyi bütün qəbullarda dəfələrlə bu barədə danışmış, yeni təyin edilən icra başçılarına məmur kürsüsündən zövq almağı yox, vəzifə yükünün ağırlığını çəkməyi tapşırmışdır. Prezident İlham Əliyev budəfəki çıxışında bildirdi ki, onun bütün tənqidlərinə baxmayaraq, bəzi hallarda dövlət məmurları vəzifə borcunu yerinə yetirmək əvəzinə qanunsuz işlərə, korrupsiyaya, rüşvətxorluğa meyil salmış və hətta sosial müdafiəyə ehtiyacı olanların maaşlarını mənimsəmişlər: "Bu vicdansızlıq və əxlaqsızlıq nəticəsiz qalmadı. Bildiyiniz kimi, bir çox icra başçıları cinayət məsuliyyətinə cəlb olunub, artıq bir çoxu məhkum edilib və bəzilərinin cinayət işlərinin istintaqı davam edir".

Azərbaycan Prezidenti vəzifəyə təyin etdiyi bütün məmurların qarşısında bir tələb qoyur: heç kim qanundan yüksəkdə olmayacaq, hamı qanunun aliliyi qarşısında istisnasız eyni dərəcədə məsuliyyətlidir. Bu tələb hamıya aiddir - icra başçılarına da, bütün məmurlara da: "Heç kim qanundan yuxarı ola bilməz. Qanun qarşısında hamı bərabərdir".

Dövlət məmuru vəzifəsini icra edən şəxs dövlətin nüfuzunu, dövlətin marağını şəxsi maraqlarından üstün tutmalıdır. Bircə anlığa 44 günlük müharibəni gözünüzün önünə gətirin. Səngərdəki əsgərdən tutmuş Ali Baş Komandana kimi hamı eyni ruhla, eyni vətən sevgisi ilə özünü düşünmədən döyüşə atılmışdı. Azərbaycan xalqı bu savaşda nəyə qadir olduğunu ortaya qoydu. Əgər bu 44 günlük müharibədə bircə gün belə kimsə şəxsi maraqlarını qələbədən yüksəkdə tutsaydı, elə yerindəcə məğlubiyyətlə qarşılaşacaqdı. 10 min fərarisi olan düşmən tərəfi yadınıza salın. Biz özümüzü yox, Vətəni düşündük. Bu gün də ölkənin məmur ordusu anlamalıdır ki, dövlət başçısının tələbləri xalqın və ölkənin maraqlarına xidmət edir, cəmiyyətimizin inkişafı üçün vacibdir. Bunu başa düşməyənlərə, anlamayanlara aman verilməyəcək.

Müasir Azərbaycan dövlətində kadrların düzgün seçilməsi və yerləşdirilməsi köklü islahatların uğurla davam etməsinə imkan yaradır. Artıq illərdir ki, kadr siyasətində ilk növbədə insanların istedadları, bacarıq və iş qabiliyyətləri nəzərə alınır, dövlətçiliyə, dövlətə sədaqət isə başlıca meyar kimi əsas götürülür. Prezident çıxışında bu məsələyə bir də toxundu: "Tanışlıq, qohumluq əlaqələri və hansısa başqa prinsiplər tamamilə aradan qaldırılmalıdır. Elə kadrlar seçilməlidir ki, bu kadrlar dövlət məmurları qarşısında duran vəzifələri şərəflə yerinə yetirsinlər. Eyni zamanda qeyd etdiyim kimi, vətənpərvər insanlar dövlətə, xalqa bağlı olan insanlar əlbəttə ki, ön plana çıxmalıdır və kadr təyinatları aparılanda bu, nəzərə alınmalıdır".

Azərbaycan Prezidentinin videoqəbul formatındakı çıxışında 44 günlük Vətən müharibəsi mövzusuna qayıtması, qəhrəmanlıq göstərən övladlarımıza xüsusi qayğı nümayiş etdirməsi bir daha dövlətin onun yolunda döyüşən əsgərlərə verdiyi yüksək qiymətin bariz nümunəsidir. Məhz dövlət başçısının tapşırığı ilə Vətən müharibəsində qəhrəmanlıq göstərmiş övladlarımızın məşğulluq məsələləri öz həllini tapır: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu sahədə genişmiqyaslı işlər görür - məşğulluq marafonu keçirilir. Mənim tərəfimdən sahibkarlara tövsiyə edilib ki, işə qəbulda ilk növbədə Vətən müharibəsində fərqlənmiş gənclərimizi nəzərə alsınlar. Əlbəttə ki, dövlət qurumları qarşısında bu vəzifəni mən qoymuşam. Siz də bu amili nəzərə almalısınız ki, öz canını fəda etməyə hazır olan gənclərimiz işlə təmin edilsin. Onların peşə qabiliyyətinin təkmilləşdirilməsi üçün müxtəlif tədbirlər görülməlidir. Yəni biz onları gələcək fəaliyyətə hazırlamalıyıq".

Faktiki olaraq onu qeyd etmək lazımdır ki, 44 günlük Vətən müharibəsindəki qələbəmiz bu gün müəyyən mənada kadr siyasətinə də maraqlı çalarlar əlavə edir, onu mükəmməlliyə doğru cilalayır.

Prezident İlham Əliyev çıxışında özəl sektorun uğurlarına da diqqət yetirdi və indiki şəraitdə, xüsusilə postmüharibə dövründə bu sektorun üzərinə daha böyük vəzifələrin düşdüyünü qeyd etdi: "Bir sözlə, onlara maneçilik törətmək yox, əksinə, kömək göstərmək lazımdır. Özəl sektorun inkişafı ümumi iqtisadi siyasətimizin istiqamətlərini nəzərə almalıdır".

Çıxışda o da qeyd olundu ki, Azərbaycan heç kimdən asılı olmayan, iqtisadi cəhətdən tamamilə müstəqil ölkədir. İşğaldan azad edilmiş ərazilərin bərpası - Qarabağın və Zəngəzurun dirçəldilməsi üçün heç kimdən yardım və kredit almamışıq.

Bir sözlə, yeni təyinat alan dövlət məmurlarına izah edildi ki, islahatların uğurlu davamı üçün Azərbaycan bütün imkanlara malikdir. Dövlət başçısının onlara son sözü belə oldu: "Kürdəmir rayonunun kəndlərində mövcud olan problemlər təhlil edilməlidir. İcra başçısı bütün kəndlərə getməlidir, insanlarla görüşməlidir. Əgər hər bir kəndin problemi həll olunarsa, onda demək olar ki, bütün problemlər həll olunar. O cümlədən Nizami və Nərimanov rayonlarının bütün guşələrində işlər elə getməlidir ki, bu rayonlar nümunəvi olsun".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Yeni Dövlət Proqramı gənclərin təhsili istiqamətində yeni yollar açacaq



"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev sərəncam imzalayıb.

Bu sərəncam dövlət başçısının "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" 2021-ci il 30 sentyabr tarixli 2931 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə verilib.

Ölkəmiz müstəqilliyinə qovuşduqdan sonra təhsil sahəsində bir sıra tədbirlər görülüb, layihələr və dövlət proqramları həyata keçirilib. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində ölkə vətəndaşlarının dünyanın 32 ölkəsinin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə ümumilikdə 3558 təqaüd verilib. Dövlət başçısının 2018-ci il 11 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, Azərbaycan Respublikasında yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir. Bu proqram çərçivəsində 4 ikili diplom proqramının icrasına başlanılıb. Hazırda ABŞ-ın Corc Vaşinqton Universiteti ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti və ADA Universiteti, Bakı Mühəndislik Universiteti ilə Koreya Respublikasının İnha Universiteti, Türkiyənin Ege Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universitetinin ikili diplom proqramları həyata keçirilir. Bu proqramlar çərçivəsində yerli ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi məqsədilə 127 nəfər Azərbaycan vətəndaşının xaricdə ən nüfuzlu universitetlərdə və elm mərkəzlərində doktorantura səviyyəsində təhsili maliyyələşdirilir. Eyni zamanda, Azərbaycan gənclərinin xaricdə bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsilinin təşkili istiqamətində hökumətlərarası təqaüd proqramları da reallaşdırılır. Həmin proqramlar çərçivəsində hazırda 700 nəfərə yaxın Azərbaycan Respublikası vətəndaşı Çin Xalq Respublikası, Latviya, Macarıstan, Qazaxıstan, Rumıniya və digər ölkələrdə təhsil alır.

2016-cı ildən fəaliyyətə başlamış Azərbaycan-Fransız Universitetində geofizika mühəndisliyi, neft-qaz mühəndisliyi, kimya mühəndisliyi və kompüter elmləri olmaqla bakalavriat və magistratura səviyyəsində ikili diplom proqramları həyata keçirilir. Eyni zamanda, ADA Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi və digər universitetlərdə də ikili diplom proqramları reallaşdırılır.

Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafının müasir və güclü təhsilə arxalanmasına, məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payının davamlı şəkildə artırılmasına dair müddəaları ölkədə insan kapitalının inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır.

Yeni - "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" ölkəmizin gələcəyini müəyyənləşdirəcək gənclərin təhsili istiqamətində yeni yollar açacaq. 2022-2026-cı illərdə, hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinin təmin edilməsi Dövlət Proqramının hədəf göstəricisidir. Dövlət Proqramı çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil yerlərinin ən azı 80 faizi ali təhsilin magistratura səviyyəsini əhatə etməsi nəzərdə tutulub.

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, onların Azərbaycan Respublikasının gələcək inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycan və Rumıniya arasında ikitərəfli əməkdaşlığın gələcək istiqamətlərinə dair fikir mübadiləsi aparılıb

Əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycan və Rumıniya hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayev və ölkəmizdə səfərdə olan Rumıniyanın energetika naziri Vircil Popesku arasında görüş olub.



Görüşdə Rumıniyanın ölkəmizdəki səfiri Vasile Soare də iştirak edib. S.Babayev Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən birinin Rumıniya olduğunu, iki ölkənin əlaqələrinin strateji tərəfdaşlıq əsasında ildən-ilə inkişaf etdiyini qeyd edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, o, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci ildə Vətən müharibəsində əldə etdiyi tarixi Zəfəri, Ermənistan işğalından azad edilmiş ərazilərimizdə böyük quruculuq işlərinin aparıldığını diqqətə çatdırıb.

Azərbaycan və Rumıniya hökumətləri arasında ticari-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Birgə Komissiyanın fəaliyyətini qeyd edən S.Babayev əməkdaşlığın inkişafı, o cümlədən ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün potensialın böyük olduğunu vurğulayıb.

Əlaqələrin daha da genişlənməsi üçün komissiyanın səylərini daim artırdığını, 2018-ci ilin noyabrında Rumıniyanın paytaxtı Buxarestdə keçirilən komissiyanın 5-ci iclasının müsbət nəticələrini diqqətə çatdırıb.

V.Popesku ölkələrimiz arasında fəal siyasi dialoqun, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən əlaqələrin genişlənməsi üçün aparılan işlərin məmnunluq doğurduğunu qeyd edib. Ölkəsinin Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verdiyini vurğulayıb.

Görüşdə ötən dövrdə Azərbaycan və Rumıniya arasında 60-dan çox əməkdaşlıq sənədinin imzalandığı qeyd edilib. Hazırlanmış yeni əməkdaşlıq sənədləri layihələrindən bəhs olunub.

Əmək, məşğulluq, sosial müdafiə sahələrində də iki ölkənin fəal əməkdaşlığı üçün potensialın olduğu bildirilib. Yeni əməkdaşlıq sənədləri layihələri sırasında "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Rumıniyanın Əmək Ədalət Nazirliyi arasında Əməkdaşlıq haqqında Protokol" layihəsinin də olduğu diqqətə çatdırılıb.

# Şəhid ailələri və müharibə əlilləri üçün bölgələrdə 500-ə yaxın fərdi evin tikintisi başa çatmaq üzrədir

Ölkəmizin 41 şəhər və rayonunda şəhid ailələri və müharibə əlilləri üçün 500-ə yaxın fərdi evin tikintisi artıq yekunlaşmaq üzrədir. Evlər yaxın vaxtlarda istifadəyə veriləcək.



Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiya iclasında qeyd edilib. Əmək və əhalinin sosial müdafiəsi naziri, kollegiyanın sədri Sahil Babayev Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin ötən il də ölkəmizdə ciddi sosial irəliləyişlərin əldə olunmasına və 2022-ci ilə yeni sosial islahatlarla başlamağa imkan verdiyini vurğulayıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, nazir 2021-ci ildə imtiyazlı kateqoriyalardan olan vətəndaşlara təqdim edilən mənzillərin sayının 3 il əvvələ nisbətən 5 dəfə artaraq 3 minə çatdığını, cari ildə də bu istiqamətdə işlərin davam etdirildiyini deyib.

İndiyədək həmin vətəndaşlara 12300-dən çox mənzil və fərdi ev verildiyini bildirən S.Babayev 2022-ci ilin növbəti islahat paketi olaraq 3,4 milyon şəxsi əhatə edən əməkhaqqı, pensiya və digər sosial ödənişlərdə ciddi artımlarla başladığını, bu artımlara illik əsasda əlavə 2,1 milyard manat sərf olunacağını diqqətə çatdırıb.

Qeyd edilib ki, ötən dövrdə yaradılan, Bakı şəhəri və Abşeron rayonu üzrə ümumilikdə 2,1 milyon əhalini, o cümlədən sosial müdafiəyə cəlb olunmuş 450 min şəxsi əhatə edən 5 DOST mərkəzi tərəfindən 700 mindən çox vətəndaşa xidmət göstərilib. Bu il Bakı şəhəri üzrə 5 saylı Bakı DOST Mərkəzinin və DOST Agentliyinin ilk regional mərkəzi kimi Bərdə rayonunda DOST Mərkəzinin açılması planlaşdırılır.

Agentliyin "Şərqi Zəngəzur və Qarabağ" Proqramı çərçivəsində Şuşa şəhərində xüsusi statusa malik Şuşa DOST filialı da açılacaq. İşğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndində isə "Ağıllı kənd" layihəsi çərçivəsində bu il "Smart DOST" xidmət məntəqəsi də fəaliyyətə başlayacaq.

Ümumən DOST şəbəkəsinin bölgələr üzrə genişlənməsi üçün bu il və növbəti illərdə müvafiq addımlar atılacaq. "Könüllü DOST" proqramının nailiyyətlərindən bəhs olunub və proqramın rəsmi saytının da hazırlanmaqda olduğu diqqətə çatdırılıb.

Əlilliyin müəyyən edilməsində yeni meyarların tətbiqinə hazırlıq işləri aparıldığı, əməkdaşların bu sahədə peşəkar səviyyədə hazırlığı üçün təlimlərə cəlb olunduqları və s. qeyd edilib. Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən səyyar reabilitasiya və icma əsaslı reabilitasiya xidmətlərinə də başlanmasının nəzərdə tutulduğu, fərdi reabilitasiya proqramının tətbiqi işləri diqqətə çatdırılıb.

Bu il Şəmkir rayonunda Uşaq Bərpa Mərkəzinin tikintisinin başa çatdırılacağı və istifadəyə veriləcəyi, 2 saylı Psixonevroloji sosial xidmət müəssisəsinin də əsaslı təmir və yenidənqurmadan sonra, həmçinin müəssisənin tikilən yeni korpusunun bu il açılışının nəzərdə tutulduğu bildirilib.

Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin filialları əsasında 12 Regional Sosial Xidmət Mərkəzi və onların tabeliyində ixtisaslaşmış sosial xidmət mərkəzlərinin yaradılacağı barədə məlumat verilib. Sosial təminat və sosial xidmət proqramların əhatə dairəsinin genişləndirilməsinin, uşaqların müəssisələrdən ailələrə qovuşmalarını nəzərdə tutan reinteqrasiya tədbirlərinin gücləndirilməsinin əsas hədəflərdən olduğu, "Sosial Məsuliyyət Platformasının" hazırlanması işlərinin aparıldığı bildirilib.

Sosial sahədə rəqəmsal innovasiyaların tətbiqinin genişləndirilməsi işlərindən bəhs olunub. Nazirlik üzrə 110 e-xidmətin, o cümlədən 46 proaktiv xidmətin fəaliyyət göstərdiyi, nazirliyin Elektron hökumət portalına yerləşdirilmiş xidmətlərinə bu ilin yanvar-fevral aylarında 2 635 400, e-sosial.az portalına 2 766 553 müraciət qeydə alındığı diqqətə çatdırılıb.

Nazirlik üzrə 30 növ e-arayış xidmətinin olduğu və həmin xidmətlər vasitəsilə bu ilin əvvəlindən artıq 108,8 min arayışın e-qaydada verildiyi bildirilib.

Qeyd edilib ki, nazirliyin e-sistemlərinin 31 qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlar tərəfindən bu ilin əvvəlindən nazirliyin informasiya bazalarına sorğu sayı 35 milyon olub.

Yeni hazırlanmaqda olan e-sistemlər barədə də məlumat verilib.

İclasda 2022-ci il üzrə qarşıda duran sosial hədəflərə doğru mühüm işlərin aparıldığı vurğulanıb. Nazirliyin tabeliyindəki DOST Agentliyinin, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin, Sosial Xidmətlər Agentliyinin, Əlillik siyasəti, Sosial təminat siyasəti, Strateji planlaşdırma və innovasiyalar şöbəsinin, Məşğulluq siyasəti və demoqrafik inkişaf məsələləri şöbələrinin, nazirliyin nəzdində Tikilməkdə olan Obyektlərin Müdiriyyətinin, DOST Agentliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin, DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin 2021-ci il üzrə fəaliyyətinin nəticələri və 2022-ci ildə qarşıda duran vəzifələri müzakirə olunub.

Həmçinin nazirliyinin tabeliyindəki Sosial Dəstək Mərkəzi tərəfindən həssas əhali qruplarından olan şəxslərə (ailələrə) maddi yardımın göstərilməsinə dair təlimatın, yeni peşə və kvalifikasiya standartlarının təsdiq edilməsi məsələlərinin müzakirəsi aparılıb.

# Bakıda Azərbaycanla Serbiya arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi qeyd olunub





Martın 1-də Azərbaycanla Serbiya arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr olunan rəsmi qəbul keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Serbiyanın Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən Serbiyanın Azərbaycandakı səfiri Draqan Vladisavljeviç ölkəsinin keçdiyi inkişaf yolundan danışıb, siyasi, iqtisadi və digər sahələrdə böyük uğurlar qazanıldığını vurğulayıb.

Diplomat Azərbaycan ilə Serbiya arasında ənənəvi dostluq münasibətlərinin hazırkı səviyyəsindən məmnunluğunu bildirib, ölkələrimizin siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrinin inkişaf etdiyini deyib.

Qeyd edilib ki, Azərbaycan ilə Serbiya arasında diplomatik əlaqələrin tarixi 1997-ci ildən başlayır. Hazırda Azərbaycan-Serbiya münasibətlərinin yüksək səviyyədə olduğunu deyən səfir hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərinin bu əlaqələrin inkişafına təkan verəcəyini diqqətə çatdırıb. Ölkələrimiz beynəlxalq hüququn norma və prinsiplərinə eyni tərzdə yanaşır. Azərbaycan və Serbiya demokratiya, bazar iqtisadiyyatı, insan haqları və qanunun aliliyi kimi təməl prinsiplərə və dəyərlərə sadiqdir. Son illərdə hər iki ölkə arasında, xüsusilə iqtisadi-ticari sahədə ciddi irəliləyişlər əldə olunub.

Sonra çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Serbiya və Azərbaycanın çox yaxın dost ölkələr olduqlarını bildirib.

Azərbaycan-Serbiya münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini deyən nazir vurğulayıb ki, bu əməkdaşlıq strateji tərəfdaşlıq və dostluq münasibətlərinə əsaslanır. Bildirilib ki, siyasi və iqtisadi münasibətlərin yüksələn xətlə inkişaf etməsi hər iki ölkənin dövlət başçılarının bu tərəfdaşlığa verdiyi önəmdən irəli gəlir. Ölkə rəsmilərinin səmərəli müzakirələri, eləcə də əldə edilən razılaşmaları iki dövlət arasında iqtisadi-ticari əlaqələrin genişlənməsinə, yeni əməkdaşlıq imkanlarının yaranmasına və qarşıya qoyulan məqsədlərin həyata keçirilməsinə imkan verir. Bildirilib ki, 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad edildikdən bugünədək orada bərpa və quruculuq işləri aparılır. Serbiya şirkətləri də bu işə töhfə verməkdə maraqlıdır.

S.Babayev diqqətə çatdırıb ki, Azərbaycan ilə Serbiya arasında ənənəvi dostluq və əməkdaşlığa söykənən münasibətlər bundan sonra da ikitərəfli əlaqələrin inkişafına və möhkəmlənməsinə təkan verəcək, xalqlarımızın mənafelərinə, onların tərəqqisinə xidmət edəcək.

Rəsmi qəbulda dövlət və hökumət rəsmiləri, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# İrəvan hakimiyyətdaxili çəkişmələrlə çalxalanır

## Korrupsiya Ermənistanın bütün həyat sferalarında dərin kök salıb

*Əvvəli 1-ci səh.*

Artıq bu ölkənin özündə də açıq etiraf edilir ki, hadisələrin real gedişi Ermənistanın bir dövlət olaraq tarixin arxivinə qovuşmasını şərtləndirir. O da xüsusi olaraq vurğulanır ki, mövcud problemlərin həlli üçün hakimiyyət hər hansı konsepsiya və ya tədbirlər planına malik deyil. Əksinə, iqtidarda təmsil olunanlar yalnız öz şəxsi mənafelərini güdür, istənilən qanunsuz yolla daha çox varidat toplamaq barədə düşünürlər.

Ermənistanın "İravnuk" qəzeti yazır ki, məhz elə bu səbəbdən həddən artıq kasıb olan, əhalisinin böyük hissəsi ifrat yoxsulluq həddində yaşayan bu kiçik ölkədə sürətli inkişaf edən yeganə sahə korrupsiyadır. Vurğulanır ki, korrupsiya Ermənistanın bütün həyat sferalarında kifayət qədər dərin kök salıb və artıq ölkənin milli təhlükəsizliyinə də böyük hədə yaradır. Belə vəziyyət sadə vətəndaşların mövcud hakimiyyətdən duyduğu narazılığın daha kəskin xarakter almasına, hətta sosial partlayış həddinə qədər yüksəlməsinə gətirib çıxarır. Ermənistanda böyük və ya kiçikliyindən asılı olmayaraq demək olar ki, bütün məmur ordusu korrupsiya piramidasında yer aldığından bu problemə qarşı mübarizə yalnız kağız üzərindədir. Onunla bağlı vaxtaşırı verilən quru vədlər isə sözdən başqa bir şey deyildi.

Korrupsiyaya qarşı strategiya hazırlansa da, müvafiq şura yaradılsa da, təbliğati kampaniyalar aparılsa da məmur oliqopoliyası reallıqda bu problemə qarşı hər hansı mübarizənin aparılmasına imkan vermir, əksinə, onlar daha çox var-dövlət toplamaq üçün istənilən qanunsuzluğa yol verməkdən çəkinmirlər.

Nəticədə ölkə həyatının ən müxtəlif sahələrində korrupsiya, rüşvətxorluq daha dərin kök salır, böyük sürətlə çiçəklənir. Məsələn, indi dövlət səviyyəsində açıq etiraf olunur ki, təkcə vergi sistemində korrupsioner, rüşvətxor məmurların sayı iki min nəfərdən artıqdır. Media bildirir ki, vergilər naziri korrupsiya piramidasının əsas fiqurlarındandır.

Bütün bunlar qarşıdakı dövr ərzində Ermənistanı daha çətin günlər gözlədiyini deməyə əsas verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Şəhidlərin xatirəsinə bulaq-abidə kompleksi tikilib

Lənkəran rayonunun Ürgə kəndində şəhidlərin xatirəsinə tikilmiş bulaq-abidə kompleksinin açılışı olub. Tədbirdə bildirilib ki, Ürgə kəndi Birinci Qarabağ və 44 günlük Vətən müharibələrində 5 şəhid verib.




Onlardan Zamanov Teymur Cəlal oğlu I Qarabağ müharibəsində, polkovnik-leytenant Şirvanov Mehman Mirəziz oğlu, İbadlı Araz Babəli oğlu, İbadzadə Zabil Fikrət oğlu və Mirzəhüseynov Natiq Balamirzə oğlu 44 günlük Vətən müharibəsində şəhid olublar.

Bulaq-abidə kompleksinin açılış mərasimi şəhid polkovnik-leytenant M.Şirvanovun doğum gününə təsadüf edib. Mehman Şirvanov 44 günlük Vətən müharibəsində böyük şücaət və qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəlib. Prezidentin sərəncamları ilə şəhid polkovnik "Qarabağ" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunub.

Bulaq-abidə kompleksinin açılış mərasimində Lənkəran şəhər rəhbərliyi, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi qaziləri, kənd ictimaiyyəti və Ürgə kənd tam orta məktəbinin müəllim və şagird kollektivi iştirak edib.

Lənkəran ŞİH-nin başçısı T.Qaraşov mərasimdə çıxış edərək Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində erməni faşistlərini darmadağın edərək qazandığı qələbənin tarixi əhəmiyyətindən danışıb. Natiq bu tarixi qələbənin əldə olunmasında lənkəranlı gənclərin də vuruşduqlarını və Vətən torpaqlarının düşmən işğalından azad olunması naminə əsl vətənpərvərlər kimi canlarından keçdiklərini xüsusi qeyd edib. Bu qəhrəmanlığın nəsillərə əbədi nümunə olduğunu söyləyən natiq hər bir gənci bu parlaq nümunəyə layiq olmaq üçün Vətəninə, xalqına və dövlətinə sədaqətlə xidmət etməyə çağırıb. Rayonda şəhidlərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı görülən işləri yüksək dəyərləndirən T.Qaraşov belə təşəbbüslərin gənc nəslin vətənpərvər ruhda tərbiyələnməsində misilsiz əhəmiyyəti olduğunu diqqətə çatdırıb.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Şəhid Rüfət Şabanovun anım günündə bulaq kompleksinin açılışı olub

Rüfət Şabanov 44 günlük Vətən müharibəsində igidliklə döyüşərək ailəyə şəhid kimi qayıdıb.




"Kəlbəcərin azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görülən igidin xatirəsini əbədiləşdirmək məqsədilə onun doğum günündə yaşadığı ərazidə bulaq kompleksinin açılışı olub.

Abşeron rayon rəhbərliyi ictimaiyyət nümayəndələri, şəhid ailələri və qazilərlə birgə Ceyranbatan qəsəbə qəbiristanlığında uyuyan şəhid Rüfət Şabanovun məzarını ziyarət etmiş, qəbiristanlıqda dəfn olunmuş şəhidlərin məzarlarının üzərinə tər çiçəklər düzmüşlər.

Daha sonra şəhid Rüfət Şabanovun əvvəllər yaşadığı binanın qarşısında yeni inşa olunan abidə-bulaq kompleksinin açılışı olub. Mərasimdə bildirilib ki, hər bir Azərbaycan vətəndaşı kimi Rüfət də torpaqlarımızın işğalı ilə heç vaxt barışmayıb. Bu səbəbdən də II Qarabağ müharibəsi başlayan kimi silaha sarılaraq cəbhəyə yollanıb və Murovdağ zirvəzi uğrunda gedən döyüşlərdə şəhid olub.

Sonra rayon rəhbərliyi Ceyranbatan qəsəbəsində şəhidin ailə üzvləri ilə görüşüb. Ailənin problemləri, qayğıları ilə maraqlanılıb, səslənən problemlərlə bağlı əlaqədar orqanlara tapşırıqlar verilib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Türkiyəyə göndərilən daha 3 qazimiz sağalaraq Vətənə geri dönüb

Ağır yaralanan və müalicə üçün "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 3 qazimiz sağalaraq Vətənə geri dönüb.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, həmin qazilər Alıyev Seymur Cavanşir oğlu, Zöhrablı Təbriz Atamoğlan oğlu və Şirəliyev Mehman İbrahim oğludur.

Qazilərimizdən ikisinin Türkiyədəki müalicə proseduru artıq uğurla yekunlaşıb, biri isə təkrar müayinə üçün göndərilib və müalicənin gedişatı müsbət qiymətləndirilib.

Onların qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib.

"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq hazırda daha 43 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir.

"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq.

Allah qazilərimizə şəfa versin!

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir. Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 "Çağrı Mərkəzi" fəaliyyət göstərir.

# Hərbi hissədə taktiki təlim keçirilib

Döyüş hazırlığı planına əsasən, hərbi hissədə taktiki təlim keçirilib.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin ssenarisinə uyğun olaraq, bölmələr ərazidə müxtəlif üsullarla taktiki yerdəyişmə, mühafizə və axtarış əməliyyatları, şərti düşmənin diversiya-kəşfiyyat qrupunun aşkarlanaraq zərərsizləşdirilməsi və digər tapşırıqları uğurla yerinə yetiriblər. Taktiki təlimlərin keçirilməsində əsas məqsəd bölmələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və hərbi qulluqçuların praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

# Qoşulmama Hərəkatının UNESCO yanındakı qrupunun 2022-ci ildə ilk plenar iclası keçirilib







UNESCO-nun mənzil-qərargahında qurumdakı Daimi Nümayəndəliyimizin təşkilatçılığı ilə Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının (QH) UNESCO yanındakı qrupunun növbəti plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayevin sədrlik etdiyi QH-nin plenar iclasında qurumun İcraiyyə Şurasının sədri Tamara Rastovac-Siamaşvili, eləcə də Qoşulmama Hərəkatına UNESCO yanında üzv ölkələrin səfirləri, daimi nümayəndələri iştirak ediblər.

Plenar iclası giriş sözü ilə açan daimi nümayəndəmiz, səfir Elman Abdullayev son 2 ildə dünyamızı dəyişdirən COVID-19 ilə mübarizənin davam etdiyini, pandemiyanın yeni çağırışlar, yeni çətinliklər yaratdığını qeyd edib. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan COVID-19-a qarşı mübarizəyə rəhbərlik etməyə davam edir. Ölkəmiz dünyanın hər yerində hər bir insan üçün peyvəndin təhlükəsiz, səmərəli və əlçatan olması istiqamətində səylərini davam etdirir.

Dünyanın ikinci ən böyük siyasi platforması olan Qoşulmama Hərəkatının 120 üzvünün olduğunu xatırladan səfir bildirib ki, Qoşulmama Hərəkatı say baxımından təsirli bir dairəyə malikdir və onun dəstəyi olmadan çoxtərəfli sahədə irəliləmək mümkün deyil. Çoxtərəfliliyin əsasını təşkil edən Qoşulmama Hərəkatının böyük potensialı var. O, bu toplantının Qoşulmama Hərəkatı ilə UNESCO arasında əməkdaşlığın perspektivlərini araşdırmaq üçün önəmli imkan olduğunu deyib. Diqqətə çatdırıb ki, UNESCO-nun yeni seçilmiş İcraiyyə Şurasının 58 üzvündən 34-ü Qoşulmama Hərəkatının üzvüdür.

Sonra UNESCO-nun İcraiyyə Şurasının sədri Tamara Rastovac-Siamaşvili çıxış edib. O, İcraiyyə Şurasının yeni formatından, Şuranın yeni seçilmiş üzvlərindən, onlarla aparılan işlərdən söhbət açıb. Qoşulmama Hərəkatının çox mühüm platforma olduğunu vurğulayıb. İcraiyyə Şurasının yeni sədri plenar iclas iştirakçılarının suallarını cavablandırıb.

İclasda Bakıda Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin Azərbaycan Milli Bölməsinin təşkilatçılığı ilə ADA Universitetində keçirilmiş "Milli Qoşulmama Hərəkatının Modeli Simulyasiyası" konfransından danışılıb. Bildirilib ki, konfransda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov gənclərin Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinə qoşulmasının təşviq olunduğunu qeyd edib və bunun innovativ həllər, sosial inkişaf gətirəcəyini və gənclərin şəbəkələşməsini formalaşdıracağını deyib.

Qeyd edilib ki, Qoşulmama Hərəkatının üç gün davam edən Model Simulyasiya Konfransında hərəkatın yüksəksəviyyəli görüşü simulyasiya edilib və iştirakçı gənclər QH-nin nüfuzlu üzvləri kimi çıxış edərək qlobal problemlərin həlli yollarını təklif ediblər.

Diqqətə çatdırılıb ki, Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin Azərbaycandan olan nümayəndələri gənclərin əməkdaşlığına yönəlmiş hədəfləri müzakirə etmək üçün Qoşulmama Hərəkatına üzv olan digər dövlətlərin nümayəndələri ilə görüşlər təşkil edirlər.

İclas iştirakçılarının diqqətinə çatdırılıb ki, Azərbaycan hökuməti 2022/2023-cü tədris ili üçün İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkənin nüfuzlu universitetlərində təqaüdlərin verilməsi haqqında qərar qəbul edib.

Plenar iclasda Qoşulmama Hərəkatının UNESCO yanındakı qrupuna sədrlik edən Daimi Nümayəndəliyimizin fəaliyyətindən söz açılıb, görülən işlərdən danışılıb. Daimi Nümayəndəliyimizin UNESCO yanında fəaliyyət göstərən digər qruplarla əlaqələrinə və onlarla keçirilən görüşlərə, eləcə də müəyyən edilmiş prioritet sahələrə dair məlumat verilib.

İclasda ötən plenar iclasın hesabatı dinlənilib və qəbul olunub. Qoşulmama Hərəkatı UNESCO qrupunun İcraiyyə Şurasının qarşıdan gələn 214-cü sessiyasında bəyanatla çıxış edəcəyi bildirilib.

İclas Qoşulmama Hərəkatı ölkələrinin UNESCO orqanlarına namizədliyinə və müxtəlif məsələlərə dair müzakirələrlə davam edib.

# *Ombudsman Aparatı:* "Azad edilmiş ərazilərimizdə bir çox kütləvi və fərdi məzarların olması ilə bağlı məlumatlar var"

Ermənistan tərəfindən Birinci Qarabağ müharibəsi dövründə əsir və girov götürülmüş azərbaycanlılar amansız işgəncələrə məruz qoyulmaqla qətlə yetirilib, daha sonra onların nəşləri kütləvi şəkildə basdırılıb.



AZƏRTAC xəbər verir ki, bu barədə Xocavənd rayonunun Edilli kəndində aşkar edilən kütləvi məzarlıqla bağlı Ombudsman Aparatının məlumatında bildirilib.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun topladığı şahid ifadələri və materiallar əsasında daha bir kütləvi məzarlıq Xocavənd rayonunun Edilli kəndində aşkar edilib. Burada Ermənistan silahlı qüvvələri tərəfindən işğal dövründə girovluqda saxlanılarkən qətlə yetirilmiş 15-20 azərbaycanlı mülki şəxsin nəşinin 3 metr dərinlikdə basdırıldığı məlum olub. Bu kəndin ərazisində başqa kütləvi məzarlıqların da olması ehtimal edilir. Bu isə beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarının, o cümlədən "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il tarixli Cenevrə konvensiyalarının, xüsusilə də "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" Konvensiyanın və ona dair 1977-ci il tarixli I Əlavə Protokolun müddəalarının Ermənistan tərəfindən kobud şəkildə pozulmasıdır.

İşğaldan azad edilmiş ərazilərimizdə, xüsusən Xocavənd, Kəlbəcər, Ağdam və Füzuli rayonlarında, eləcə də Şuşa şəhərinin ətrafında bir çox kütləvi və fərdi məzarların olması ilə bağlı məlumatlar var.

Bu ərazilər minalardan təmizləndikcə aşkara çıxan kütləvi məzarlıqlar Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətini, dinc insanlara qarşı törətmiş olduğu müharibə cinayətlərini bir daha sübut edir. Bütün bu faktlar Ermənistanın beynəlxalq hüquqi məsuliyyətə cəlb olunması üçün əsasdır.

# Şimali Koreya Yapon dənizinə ballistik raket atdı

## ABŞ bunu pisləyərək KXDR-i qeyri-sabitlik xarakterli hərəkətlərdən çəkinməyə çağırdı

Amerika Birləşmuş Ştatları KXDR-in Yapon dənizinə raket atmasını pisləyir. Bu barədə Amerika Silahlı Qüvvələrinin (INDOPACOM) Hind-Sakit Okean Komandanlığının bəyanatında bildirilir.



Qeyd olunur ki, ABŞ hərbçiləri Şimali Koreya Respublikası və Yaponiya ilə, eləcə də regionda digər müttəfiq və tərəfdaşlarla məsləhətləşmələr aparır.

"Birləşmiş Ştatlar bu sınağı pisləyir və KXDR-i qeyri-sabitlik xarakterli hərəkətlərdən çəkinməyə çağırır. Bu hadisənin ABŞ qulluqçuları, ölkə ərazisi və ya müttəfiqlərimiz üçün birbaşa təhlükə yaratmadığını qiymətləndirməyimizə baxmayaraq, vəziyyəti izləməkdə davam edəcəyik", - deyə məlumatda bildirilir. Daha əvvəl "Yonhap" Agentliyi Şimali Koreya tərəfindən Yapon dənizinə doğru raket atılması barədə Cənubi Koreya Birləşmiş Qərargah rəisləri Komitəsinə istinadən məlumat verib.

"Kiodo" Agentliyinin Yaponiya hökumətinə istinadən verdiyi xəbərə görə, naməlum mərmi, ehtimal ki, ballistik raketdir. Raket Yaponiyanın müstəsna iqtisadi zonasından kənarda düşüb. Dağıntılar və xəsarət alanlar barədə məlumat yoxdur.

Bu arada Yaponiya Müdafiə Nazirliyinin yaydığı məlumata görə, fevralın 27-də Şimali Koreya Yapon dənizi istiqamətində ballistik raket buraxıb. Yaponiya hökuməti yanında sınaqla bağlı məlumatların toplanması üzrə xüsusi qərargah yaradılıb. Raketin yerli vaxtla səhər saat 7:52-də Pxenyanın Sunan rayonundan buraxıldığı bildirilir.

Yaponiyanın müdafiə naziri Nobuo Kisi raketin 300 kilometr məsafə qət edərək dənizə düşdüyünü bəyan edib. "Şimali Koreya Pxenyan rayonundan Yapon dənizi istiqamətində ballistik raket buraxıb. Təqribən 300 kilometr məsafəni qət edən raket 600 kilometr hündürlükdə uçub", - deyə nazir bu zaman dənizdə və havada olan gəmilərə heç bir ziyan dəymədiyini də qeyd edib.

Kisi raket sınağına görə rəsmi Tokionun Şimali Koreyaya diplomatik kanallar vasitəsilə etiraz etdiyini bildirib.

Qeyd edək ki, bu, cari ildə Şimali Koreyanın həyata keçirdiyi sayca səkkizinci raket sınağıdır. Yanvarın 18-də Şimali Koreya taktiki idarəolunan raketlərin sınaq buraxılışının keçiriləcəyini bəyan edib. Hədəfi dəqiq vuran iki raket işə salınıb.Yanvarın 17-də Cənubi Koreya hərbçiləri Şimali Koreyanın Pyongyang şəhərindəki Sunan hava limanından iki ballistik raketin buraxıldığını bildiriblər. KXDR tərəfindən ballistik raketin buraxılması haqda Yaponiyanın Sahil Mühafizəsinə starta 10 dəqiqə qalmış xəbərdarlıq edib. Yanvarın 14-də Pxenyan şərq istiqamətində naməlum mərminin buraxılmasını həyata keçirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR





## Qarabağda və Şərqi Zəngəzurda evlər əvvəlkilərdən də geniş və yaraşıqlı olacaq

### Doğma yurda dönən insanlar "ağıllı kənd"lərdə, müasir şəhərlərdə yaşayacaqlar

Düşmən tapdağından azad edilmiş ərazilərimiz getdikcə daha geniş tikinti meydanına çevrilir. İnşaat işləri Qarabağın və Şərqi Zəngəzurun çoxsaylı kənd, şəhər və rayon mərkəzlərini, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir. Hər yerdə nəqliyyat, energetika, kənd təsərrüfatı və digər sektorları inkişaf etdirmək üçün ən müasir infrastruktur yaradılır.

Bütün bu genişmiqyaslı işlər sırasında yeni məhəllələrin salınması, çoxmənzilli binaların, fərdi yaşayış evlərinin tikintisi xüsusi önəm daşıyır. Bununla da Prezident İlham Əliyevin söylədiyi "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq" kimi fikirləri dönə-dönə öz təsdiqini tapır.

Bu il fevralın 13-də Ağdama səfəri zamanı dövlət başçısı ənənəsinə sadiq qalaraq bir sıra istehsal və sosialyönümlü obyektlərin, o cümlədən yeni yaşayış kompleksinin təməlini qoydu.

Burada ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binası inşa ediləcək. Mənzillərin ümumi yaşayış sahəsi 21 min 921 kvadratmetr olacaq. Kompleksin tikintisinin 2023-cü ilin dekabrında yekunlaşması gözlənilir.

Xatırladaq ki, Prezident İlham Əliyev Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməlini keçən il mayın 28-də qoyub. Həmin yaşayış binasında mənzillər 1, 2, 3, 4 və 5 otaqlı olacaq. Binanın fasadında isə Ağdamın yerli ağ daşından və Avropa memarlıq elementlərindən istifadə ediləcək.

Qoy düşmən baxıb xar olsun! Onun "Qafqazın Xirosiması"na çevirdiyi Ağdamda yenə də ağ evlər ucalır. Təkcə Ağdamda deyil, Qarabağın və Şərqi Zəngəzurun hər tərəfində yurd yerlərimiz abadlaşır, canlanır, öz sakinlərinin yolunu gözləyir.

Məsələn, Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "ağıllı kənd" pilot layihəsi həyata keçirilir. Bu layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir.

Keçən il aprelin 26-da təməli qoyulan kəndin salınması dövlət başçısının nəzarətindədir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də rayona səfər çərçivəsində də "ağıllı kənd"də islərin gedişi ilə tanış olublar. Hazırda layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti aparılır. İnnovativ inşaat materiallarından tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Bütün bunlar o deməkdir ki, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait yaradılır.

Füzuli rayonunun Dövlətyarlı kəndində də "ağıllı kənd" layihəsi həyata keçirilir. "Yaşıl enerji"nin, "ağıllı idarəetmə" sisteminin tətbiq olunacağı "ağıllı kənd"də ilkin mərhələdə əsasən 3, 4 və 5 otaqlı olmaqla 450 evin inşası nəzərdə tutulub. Burada həmçinin sosial infrastruktur qurulacaq. Kəndin ətrafında isə "ağıllı kənd təsərrüfatı" sahəsi olacaq. Beləliklə, sakinlərin məşğulluğu da həllini tapacaq. Dövlətyarlıda həmçinin "ağıllı turizm" və hotel infrastrukturunun yaradılması nəzərdə tutulub.

Füzuli şəhərində isə çoxmənzilli yaşayış məhəlləsi salınır. 17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 1, 2, 3 və 4 otaqlı mənzillərdən ibarət 65 mənzilli, 4-5 mərtəbəli yaşayış binaları inşa ediləcək. Məhəllədə çoxfunksiyalı binalar da olacaq. Ümumilikdə, burada 2860 nəfərin yaşaması planlaşdırılır.

Məhəllənin inşasında ənənəviliklə müasirlik vəhdət təşkil edəcək. Bu kompleks eyni zamanda şəhərin gələcək memarlıq simasının müəyyənləşməsinə təkan verəcək.

Keçən ilin oktyabrında Cəbrayıl şəhərində də ilk çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyulub. 10,5 hektar ərazini əhatə edən bu məhəllə də mərhələ-mərhələ inşa ediləcək. İlk mərhələdə 5 bina tikiləcək və buraya 200-ə yaxın ailə köçürüləcək. Məhəllədə 4, 5 və 6 mərtəbəli yaşayış evləri və digər təyinatlı binalar olacaq. Ümumiyyətlə, şəhərin mərkəzində tikiləcək binaların fasad və eyvanlarına tarixilik qorunmaqla, müasir görkəm veriləcək.

Qeyd edək ki, Cəbrayıl rayonunda işğaldan əvvəl 52 min sakin yaşayıb. İndi cəbrayıllıların sayı 82 minə çatıb.

Azərbaycanın mədəniyyət paytaxtı, cənnətməkan Şuşanın sakinləri də öz yurdları üçün çox darıxıblar. Doğma şəhər də onları qarşılamağa hazırlaşır. Bərpa olunan tarixi abidələri, abadlaşan məhəllələri, yeni sosial infrastrukturu və təbii ki, yeni evləri ilə...

Şəhərin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Şuşada uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun çəkilməsi nəzərdə tutulur. Baş planda həmçinin şəhərin ictimai dayanacaqlarının da yerləri müəyyən edilib. Onlar elə qoyulacaq ki, şəhərin küçələrinə giriş-çıxışa maneə olmasın. Şəhərin relyefinə uyğun olaraq yaşıllıqları genişləndirmək və landşaftı qoruyub saxlamaq məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulur.

Şuşada ümumi sahəsi 47 min kvadratmetrə yaxın yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. 1-ci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar da Şuşaya xas memarlıq üslubu ilə tikiləcək.

Xatırladaq ki, baş plan keçən il avqustun 29-da Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təqdim olunub, birinci məhəllənin təməli də həmin gün qoyulub.

Bir sözlə, doğma yurdlarına dönən insanlar "ağıllı kənd"lərdə, müasir şəhərlərdə yaşayacaqlar.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Çəltikçilik sahəsində beynəlxalq əməkdaşlıq genişlənir

Kənd təsərrüfatının ənənəvi sahələrindən olan çəltikçiliyin inkişaf etdirilməsi, əhalinin düyüyə olan tələbatının daxili istehsal hesabına ödənilməsi, çəltikçilik sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi istiqamətində son illərdə bir sıra əhəmiyyətli tədbirlər görülüb.

Çəltikçilik sahəsində fəaliyyət göstərən beynəlxalq, regional və milli qurumlarla əməkdaşlıq əlaqələri genişləndirilir. Əkinçilik Elmi-Tədqiqat İnstitutu (ƏETİ) bu bitkinin xəstəlik və zərərvericilərə davamlı və məhsuldar sortlarının yaradılması, həmçinin kadr hazırlığı sahəsində Mərkəzi və Qərbi Asiya Çəltik Mərkəzi (CWARice) və Türkiyə ilə əməkdaşlıq edir.

Azərbaycan Respublikasının Malayziyadakı səfirliyinin təşəbbüsü ilə çəltikçilik sahəsində ƏETİ ilə Malayziya Kənd Təsərrüfatı Tədqiqat və İnkişaf İnstitutu (MARDİ) arasında onlayn görüşlər keçirilib və nəticədə əməkdaşlığa dair memorandum layihəsi hazırlanıb. Memorandumun imzalanması və qarşılıqlı müzakirələrin aparılması məqsədilə MARDİ-nin direktoru Dr.Mohamad Zabavinin rəhbərliyi ilə həmin institutun nümayəndə heyəti Azərbaycanda səfərdə olub.

Səfər çərçivəsində nümayəndə heyəti, həmçinin Malayziyanın Azərbaycan Respublikasındakı səfiri Dato Yubazlan Yusof ƏETİ-də və Lənkəran rayonunda olublar. ƏETİ-də tədqiqat infrastrukturu ilə tanışlıqdan sonra tədqiqat heyəti ilə elmi müzakirələr aparılıb, atılacaq növbəti addımlar müzakirə edilib. Görüşdə Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri İmran Cümşüdov ölkədə əkinçilik sistemləri, prioritet bitkilər, torpaq və iqlim şəraiti, kənd təsərrüfatı sahəsində qəbul edilmiş dövlət proqramları, məhsul istehsalçılarına göstərilən dövlət dəstəyi və çəltikçiliyin mövcud vəziyyəti barədə məlumat verib. Görüşün sonunda ƏETİ-nin direktoru Faiq Xudayev və MARDİ-nin direktoru Dr.Mohamad Zabavi əməkdaşlığa dair memorandumu imzalayıblar.

Daha sonra səfir və nümayəndə heyəti çəltik emalı müəssisələri ilə tanış olmaq, çəltikçiliyin mövcud vəziyyəti ilə bağlı yerli istehsalçılarla müzakirə aparmaq üçün Lənkəran rayonuna səfər ediblər. Lənkəran Dövlət Aqrar İnnovasiya Mərkəzində (DAİM) keçirilən müzakirələrdə Lənkəran, Masallı, Astara mərkəzlərinin rəhbərləri və əməkdaşları, fermerlər iştirak edib. Tədbirdə Lənkəran DAİM-in direktoru Tofiq Rzayev bölgədə çəltikçiliyin vəziyyəti, ƏETİ-nin direktoru Faiq Xudayev isə seleksiya və toxumçuluq işlərinin vəziyyəti barədə məlumat veriblər. Fermerlər məhsuldarlığın artırılmasında sertifikatlı toxumun əhəmiyyətini vurğulayıblar. Nümayəndə heyəti Lənkəran rayonunda fəaliyyət göstərən bir sıra özəl müəssisələrdə həyata keçirilən emal prosesi ilə də tanış olub.

## Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun tikintisi bu ilin sonunda yekunlaşacaq

Beynəlxalq miqyaslı "Böyük İpək yolu"nun tərkib hissəsi olan Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 130 km-lik Gəncə-Qazax-Gürcüstan sərhədi hissəsinin 4 hərəkət zolağına genişləndirilməsi layihəsinin icrası davam etdirilərək yekunlaşdırılır.



Yolun tikinti işlərinin 80 faizi yerinə yetirilib. Tikinti işlərinin cari ilin sonuna qədər yekunlaşdırılması planlaşdırılır.

Layihəyə əsasən yolun ümumi eni 27.5 metrdir. Hər birinin eni 3.75 metr olmaqla 4-6 hərəkət zolağından ibarət yolun örtüyü polimer asfalt-beton olacaq. Yol yatağının qalınlığı ümumilikdə 72.5, asfalt-beton örtüyü 3 lay olmaqla, qalınlığı 27 sm təşkil edəcək.

Layihə çərçivəsində 25 yol qovşağı və ötürücüsü, 16 avtomobil körpüsü, 82 yeraltı keçid, 39 düzbucaqlı su keçidi, 574 dairəvi suötürücü boru inşa edilir. Layihə boyu zəruri yerlərdə 84 avtobus dayanacağı quraşdırılacaq. Artıq süni qurğuların inşası istiqamətində işlərin böyük hissəsi yerinə yetirilib.

Gəncə-Qazax-Gürcüstan sərhədi hissəsinin 4 hərəkət zolağına genişləndirilməsi və sürətin artması ilə vətəndaşların rahat və təhlükəsiz gediş-gəlişi təmin ediləcək. Bundan başqa, yol trası iri yaşayış məntəqələrindən kənar keçməklə layihələndirilib. Bu isə həmin yaşayış məntəqələrində yaşayan əhalinin və yoldan istifadə edən sürücülərin təhlükəsizliyi baxımından önəmlidir.

Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolu beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycandan keçən tərkib hissəsi olmaqla, Avropa-Asiya və Yaxın Şərq ölkələri ilə, həmçinin respublika ərazisində bu istiqamətdə əlaqələrin inkişafında mühüm rol oynayır.

Layihə tam reallaşdırıldıqdan sonra şərqdən qərbə və əks istiqamətdə "Böyük İpək yolu"nun Azərbaycandan keçən hissəsi olan Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolu Avropa ilə Asiya arasında avtomobillə beynəlxalq və daxili yükdaşımaların artmasında önəmli rol oynayacaq. Bundan başqa, yolun tikintisi kənd təsərrüfatı, turizm və sənayenin inkişafına gətirib çıxarmaqla yolboyu yaşayan əhalinin sosial həyatına da müsbət təsir göstərəcək.

## "Aqroservis" ASC Xaçmaz Texnika Satış Mərkəzində "Açıq qapı sərgi-satış yarmarkası" keçirəcək

"Aqroservis" ASC fermerlərin texnika alışına olan əlçatanlığını təmin etmək, məsafə, vaxt itkisinin və bu prosesdə sərf edilən əlavə vəsaitlərin qarşısının alınması məqsədilə Xaçmaz Regional Nümayəndəliyində texnika satışına başlayıb.



İndiyədək səhmdar cəmiyyətin yalnız 3 yerdə - Şirvan, Ucar rayonlarında və Gəncə şəhərində texnika satış mərkəzi fəaliyyət göstərirdi. Ölkənin şimal rayonları, xüsusilə kənd təsərrüfatının inkişaf etdiyi və bu sahədə məşğulluğun daha çox olduğu şimal bölgəsində fermerlər artıq uzaq məsafəyə getmədən və zaman itirmədən "Aqroservis" ASC-nin Xaçmaz Regional Nümayəndəliyində istənilən növ müasir, innovativ texnika və avadanlığı əldə edə biləcəklər.

Bu məqsədlə martın 4-də Xaçmaz Regional Nümayəndəliyində "Açıq qapı sərgi-satış yarmarkası" keçiriləcək. Yarmarkada fermerlər müxtəlif növ texnika ilə tanış ola, onları sınaqdan keçirə və ala biləcəklər. Yarmarkaya çıxarılan texnikaların operativ şəkildə mərkəzi ofisə gəlmədən 40 faiz güzəştlə lizinq və nağd yolla satışı təşkil ediləcək. Açılış günü fermerlərə müxtəlif aksiya və kampaniyalar də təklif edilir.

Satış mərkəzində nümayiş olunan bütün texnikalar bazar qiymətlərindən 10 faiz endirimlə satılacaq. "Açıq qapı" günündə isə xüsusi olaraq bir neçə adda texnika əlavə 5 faiz endirim olmaqla bazar qiymətlərindən 15 faiz aşağı təklif edilir. Bundan başqa, müxtəlif aqreqatların alışı zamanı 2 illik zəmanət, 1 illik texniki baxış, 1 illik "AgroUber" mobil platformasından ödənişsiz istifadə imkanı, çatdırılma, quraşdırılma və texnikanın istifadə qaydalarına dair təlim hədiyyə ediləcək.

"Açıq qapı"nın keçirilməsində əsas məqsəd qarşıdakı yeni becərmə və məhsul yığımı mövsümündə fermerlərin yeni innovativ texnikalarla tanış olmasına şərait yaratmaq, onların texnikalara əlçatanlığını təmin etmək, fermerlərlə təchizatçılar arasında əlaqələrin qurulmasına yardım etmək, bu sahədə məlumatlandırma aparmaqdır.

## Saatlının əkin sahələrindən bol məhsul yığılıb

Keçən il Saatlı rayonu üzrə əkinçilik sahəsində uğurlu nəticələr əldə olunub.

Saatlı Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, 2021-ci ilin məhsulu üçün 55384,3 hektar sahədə payızlıq və yazlıq bitkilər əkilib. Bunun 46840,2 hektarı və ya 84,6 faizi əhali və fərdi sahibkarların, 8544,1 hektarı və ya 15,4 faizi isə kənd təsərrüfatı müəssisələrinin payına düşüb. Sahələrdən 84911,7 ton taxıl, 6957,7 ton kartof, 26094,3 ton tərəvəz, 83165,7 ton bostan məhsulu və s. yığılıb.

Rayonda 2021-ci ildə əkilmiş 14304,7 hektar pambıq sahəsindən 38381,1 ton xam pambıq tədarük edilib ki, bu da respublika üzrə pambıq tədarükündə ən yaxşı göstəricidir.

## Pasiyentlər reabilitasiya mərkəzinin xidmətindən razıdırlar

Şirvan Reabilitasiya Mərkəzi 2004-cü ildən fəaliyyət göstərir. Mərkəz Şirvan şəhərində, habelə Salyan, Neftçala, Sabirabad, Saatlı, İmişli, Beyləqan, Füzuli və Hacıqabul rayonlarında yaşayan 18 yaşdan yuxarı bütün kateqoriyalardan olan əlillərə kompleks halda tibbi, sosial-bərpa müalicəsi göstərir.







Hər il burada 500 nəfərə yaxın əlilliyi olan şəxs həm stasionar, həm də ambulator şəkildə müalicə kursu götürür.

2020-ci ildə respublikamızın digər müalicə ocaqları kimi, burada da əsaslı təmir işləri aparılmış, mərkəz ən yeni avadanlıqlarla təchiz edilmişdir. Mərkəzdə elektroterapiya, termoterapiya, hidroterapiya, su hovuzu, masaj, parafin otaqları, müalicəvi bədən tərbiyəsi zalı mövcuddur. Otaqlarda traksiya aparatı, çiyin, dirsək, diz oynaqları üçün lakomatlar, kombinə olunmuş elektroterapiya, maqnitoterapiya, limfadrenaj aparatları yerləşdirilmişdir. Reabilitasiya mərkəzində 14 çarpayılıq 7 palata, onların hər birində ayrı-ayrılıqda sanitar qovşağı, televizor, soyuducu vardır.

44 günlük Vətən müharibəsi dövründə mərkəzdə sosial-psixoloji reabilitasiya layihəsi həyata keçirilmişdir. Həmin iş bu gün də davam etdirilir. Layihənin məqsədi Vətən müharibəsində sağlamlığını itirmiş döyüşçülərə, eləcə də şəhid ailələrinə, onların yaxın qohumlarına, habelə digər vətəndaşlara psixoloji xidmət göstərməkdir. İndiyəcən 146 qazi və 30 ailə üzvü burada psixoloji yardım almışdır.

Mərkəzdə səliqə-sahman hökm sürür. Müalicə ocağının direktoru Mehriban Siracova bizi mərkəzlə tanış edir, otaqlarda, idman zalında qoyulmuş tibbi avadanlıqların müalicəvi əhəmiyyəti, funksiyası barədə məlumat verir. Palataların birində müalicə olunan Rəhim Həsənovla tanış olub hal-əhval tuturuq. Şəhid Həsən Həsənovun atasıdır. 2017-ci ildə insult keçirib. Söhbət zamanı məlum olur ki, uzun illər Şirvan şəhərindəki neftçıxarma müəssisəsində çalışıb. Hər il 2 dəfə burada müalicə alır. Göstərilən xidmətdən razı qaldığını, ona böyük diqqət və qayğıkeşliklə yanaşıldığını söyləyir. Kiçik oğlu Rahim Həsənovun da Vətən müharibəsi iştirakçısı olduğunu öyrənirik.

Başqa bir palatada Vətən müharibəsi qazisi, ikinci qrup əlil Həbib Sərhəngov müalicə olunur. Şirvan şəhər sakinidir. Müharibə başlayan günün səhəri könüllü olaraq Vətənin müdafiəsinə gedib. Noyabr ayının 9-da Gorus-Qafan meşəsi ərazisində gedən qızğın döyüşlərdə ağır yaralanıb. Aldığı güllə yarasından 27 gün komada qalıb. Deyir ki, göydə Allah, yerdə həkimlərin köməyi ilə ona yenidən yaşamaq nəsib olub. H.Sərhəngov "Cəsur döyüşçü", "Vətən uğrunda" medalları ilə təltif olunub. Reabilitasiya mərkəzində ona göstərilən xidmətdən razılıq edərək deyir:

- Sağ olsun buranın işçiləri. Əllərindən gələni edirlər ki, vəziyyətimiz yaxşılaşsın. Bunun üçün nəzərdə tutulan bütün müalicə tədbirlərini vaxtında və keyfiyyətlə görürlər. Nəticədə sağlamlığımız tədricən bərpa olunur. Buna görə də mərkəzin direktoru Mehriban xanıma və burada çalışan həkimlərin, tibb bacılarının, işçilərin hər birinə təşəkkür edirik.

Birinci Qarabağ müharibəsi iştirakçısı, 1993-cü ildə Ağdərədə döyüşərkən sol qolunu itirmiş ikinci qrup əlil Ziyafət Qulubəyov da uzun müddətdir ki, burada müalicə alır. Onun qaldığı palataya daxil olarkən tibb bacısı Könül Bədəlova təzyiqini ölçürdü. Proses başa çatanda tibb bacısı: "Təzyiqiniz normaldır, axşam yeməyindən sonra bir də ölçərik", - deyir. Qazi Z.Qulubəyov da öz növbəsində ona təşəkkürünü bildirir: "Əliniz-qolunuz var olsun". Sonra söhbət zamanı reabilitasiya mərkəzində xəstələrə yaradılan şəraitdən razılıq edərək əlavə edir:

- Onu da deməliyəm ki, göstərilən bu xidmət ilk növbədə dövlətimizin biz qazilərə olan diqqət və qayğıkeşliyinin təzahürüdür.

Reabilitasiya mərkəzinin həyətində də təmizlik, səliqə-sahman diqqət çəkir. Burada xəstələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün münasib şərait vardır.

Beynəlxalq Əlillər Günü və digər bayramlar mərkəzdə həmişə yüksək səviyyədə qeyd olunur. Belə bayramların sırasına 8 Noyabr - Zəfər Günü də əlavə edilib. Bayram günlərində məxsusi olaraq süfrələr açılır, stolüstü oyunlar üzrə yarışlar keçirilir. Bir sözlə, mərkəzin həkimləri, tibb işçiləri hər vasitə ilə burada müalicə alan hər kəsə yardımçı olur, bütün vasitələrlə onların normal həyata qayıtmalarına çalışırlar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Ədəbiyyat xadimləri



# Mübarizə, həsrət və ümidin şairi...

**Ömrü mübarizələrdə keçən şair Nazim Hikmət özünü belə təqdim edib:**

**Mən bir insan.**
**Mən bir türk şairi Nazim Hikmət!**
**Mən təpədən dırnağa insan.**
**Təpədən dırnağa mübarizə, həsrət və ümiddən ibarət!**

**O, 1902-ci il yanvarın 15-də Osmanlı imperiyasına daxil olan Saloniki şəhərində (indiki Yunanıstanın ərazisi) zadəgan ailəsində dünyaya gəlib. Atası Hikmət bəy diplomat, anası Ayişə Cəlilə xanım incəsənətlə, xüsusilə rəssamlıqla maraqlanan savadlı qadın olub.**

**Nazim Hikmətin şair kimi formalaşmasında babası Mehmet Nazim Paşanın böyük təsiri olub. Babasından eşitdiyi klassik ədəbiyyatla bağlı məlumatlar onun düşüncələrinə təsirsiz ötüşməyib. Uzun illər fərqli şəhərlərdə vali vəzifəsində çalışan Mehmet Nazim Paşa özü də arabir şeirlər yazıb. O, Türkiyədə fəaliyyət göstərən Mövlana təriqətinin üzvlərindən olub. Təriqət məclislərində fəal iştirak edib. Osmanlı hakimiyyətinə kəskin etirazlarını bildirənlərlə bir sırada dayanan Mehmet Nazim Paşa və daxil olduğu qrup hökumət tərəfindən cəzalandırılıb.**

**Nazim Hikmət 1918-ci ildə İstanbul Hərbi Dənizçilik Məktəbinə daxil olub, lakin yazdığı şeirlərə görə, 1919-cu ildə məktəbdən qovulub.**

## Həbsxanalarda yazılan əsərlər...

"Sərvliklərdə" adlı ilk şeiri 1918-ci ildə "Yeni məcmuə" jurnalında dərc olunub. 1920-ci ildə "Alemdar" qəzetinin təşkil etdiyi müsabiqədə birinci yeri tutub. 1920-ci ildə qələmə aldığı "Gənclik" adlı şeirində o, gəncləri Vətənin qurtuluşu uğrunda savaşa səsləyib. Həmin il Anadoluya gedib. Bir il orada yaşayıb. 1921-ci ildə dostu Vala Nurəddinlə gizlincə sovet Rusiyasına getmək üçün yola çıxıb. Gəmi ilə Batumiyə, oradan qatarla Moskvaya çatıb.

O, 1922-1924-cü illərdə Moskva Şərq Zəhmətkeşlərinin Kommunist Universitetində oxuyub. Təhsilini başa vurduqdan sonra Türkiyəyə dönərək inqilabi "Oraq-çəkic" qəzetində və "Aydınlıq" jurnalında kommunist ideologiyasını tərənnüm edən əsərlərlə çıxış edib. Həmin mətbu orqanlar bağlanıb. Təqib olunan Nazim Hikmət 1925-ci ildə 15 il həbsə məhkum edilib. 1927-ci ildə o, yenidən SSRİ-yə qaça bilib.

1932-ci ildə Türkiyədə kommunist ideologiyasının təbliğinə, yekdil mübarizəyə səsləyən "Gecə gələn teleqram" şeir toplusuna görə 5 il həbs cəzasına məhkum olunub. Bir ildən sonra amnistiya əsasında azad edilib.

1935-ci ildə yazdığı "Taranta Babuya məktublar" poemasında, 1936-cı ildə qələmə aldığı "Alman faşizmi və irqçiləri" publisistik əsərlərində faşizm və onun Türkiyədəki tərəfdarlarını ifşa edib. Nazim Hikmətin sağlığında doğma vətənində sonuncu kitabı - "Şeyx Bədrəddinin dastanı" 1936-cı ildə işıq üzü görüb.

1938-ci ildə sübut olunmamış ittihamla 28 il 4 ay həbs cəzasına məhkum edilib. 8 ay həbsxanada saxlanılıb. Nazim Hikmət məşhur "İnsan mənzərələri" epopeyasını, "Həbsxanadan məktublar" silsiləsini, "Məhəbbət əfsanəsi", "Yusif və Züleyxa" pyeslərini və başqa əsərlərini həbsxanada yazıb.

Nazim Hikmət 1951-ci ildə Ümumdünya Sülh Şurası Bürosunun və 1959-cu ildən sonra isə onun Rəyasət Heyətinin üzvü olub. 1952-ci ildə "Türkiyədə", 1955-ci ildə "Qərib adam", 1956-cı ildə "İvan İvanoviç vardımı, yoxdumu", 1960-cı ildə "Domokl qılıncı" və başqa pyeslərini, poeziyaya və dramaturgiyaya dair məqalələrini yazıb. SSRİ-də Nazim Hikmətin ssenariləri və əsərlərinin süjetləri əsasında "Bir məhəlləli iki oğlan", "Sevdalı bulud", "Yaşamaq gözəldir, qardaşım", "Məhəbbətim, kədərim mənim" kimi kinofilmlər çəkilib.

Nazim Hikmət Şərq klassikasını gözəl bilib. Ancaq o, türk ədəbiyyatına yeni forma və mütərəqqi məzmun gətirib. Türk poeziyasına sərbəst şeir vəznini Nazim Hikmət gətirib. O, Azərbaycan şair və yazıçılarının bir çoxu ilə dostluq edib. Azərbaycana həsr olunmuş şeirləri, Azərbaycan mədəniyyətinə dair məqalə və xatirələri var. Bakıda işıq üzü görən "Günəşi içənlərin türküsü", "835 sətir", "Varan-3", "1+1=1", "Səsini itirmiş şəhər", "Gecə gələn teleqraf", "Taranta Babuya məktublar", "Portretlər" və digər kitabları onu geniş oxucu kütləsinə sevdirib.

## "O, mavi gözlü bir devdi"...

"Gözəl üzlü, mavi gözlü adam" kimi tanınan yaraşıqlı şairin sevənləri çox olub. O da yeni sevgilərə könlündə hər zaman yer tapıb. Uşaqlıqdan dost olduğu Nüzhətlə Moskvada tələbə olduqları vaxt evlənib. Nüzhətin seçimini yanlış sayan ailəsi ona məktublar yollayıb Nazimlə xoşbəxt ola bilməyəcəyini yazıblar. Bir müddət sonra səhhətində problemlər yaranan Nüzhət Türkiyəyə dönüb. Müalicə olunub. Sonra da ailəsinin təkidi ilə ayrılmaq qərarını verib.

Sonralar bacısının iki övladlı - bir oğlu və bir qızı olan rəfiqəsi Pirayə ilə tanış olub. 1935-ci ildə kimsəyə xəbər vermədən evləniblər.

1946-cı ildə Bursa həbsxanasında yatarkən görüşünə gələn dayısının qızı Münəvvərə aşiq olub. Elə həbsxanadan Pirayəyə məktub yazıb bu sevgini etiraf edib. Münəvvər evli, bir uşaq anası idi. Şair onun ərindən ayrılmayacağını düşündüyü vaxtlarda yenidən Pirayəyə üz tutub. Ona məktubunda yazıb: "Yer üzündə heç bir insan heç bir insana mənim sənə etdiyim qədər pislik etməyib. Buna baxmayaraq, gəl... Ancaq sən yenə gəl. Mənə nifrət etsən belə, məni bir daha tənha buraxma!" Pirayə Nazimi bağışlayıb.

Nazim həbsdən çıxacağını yazıb. Pirayə xəstəxanaya gedib. Şairin evinə dönəcəyini öyrənib. Qapı açılıb. Nazimin bacısı ilə Münəvvər gəlib. Pirayə otaqdan çıxıb... Nazim Hikmətin Pirayə ilə sevgisi belə bitib.

Azadlığa çıxan şair isə Münəvvərlə evlənib. Onların bir oğlu olub. Nazim Türkiyədən uzaqlaşarkən Münəvvərlə oğlu Mehmeti də tərk etməli olub.

Nazim Hikmətin şair qəlbi yeni sevdalara qanadlanıb. Qalina Qriqoryevna Kolesnikova ilə tanış olub. Qalina onun həkimi idi. Tezliklə münasibətləri sevgiyə çevrilib.

Münəvvər oğlu ilə onun yanına gedəndə isə artıq şair başqa bir qadına - özündən otuz yaş kiçik Veraya aşiq olmuşdu. Bunu Münəvvərə də söyləyib. Ayrılıblar. Bu ayrılığın ağrısını ən çox çəkən Məhməd olub. Şairin rəssam oğlu Məhməd Hikmət 67 yaşında Fransada vəfat edib.

Türk dünyasının böyük şairlərindən olan Nazim Hikmət 1963-cü il iyunun 3-də Moskvada ürək xəstəliyindən qəflətən vəfat edib. Həyatının son anlarında əlində oxucularının məktubu və səhər qəzeti, yanında son sevgi şeirlərini həsr etdiyi Vera olub. Anadoluda bir kənd məzarlığında dəfn edilməsini, başının üstündə bir çinar ağacının olmasını arzulayan,

Ən sevdiyim məmləkət yer üzüdür
Sıram gəlincə yer üzü ilə örtün üstümü,

deyən şairin son mənzili Moskvada Novi Deviçi qəbiristanlığı olub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Aktyorlar... rollar...

# Obrazlarda yaşamaq şərəfi hər kəsə nəsib olmur...

**Lənkəran Dövlət Dram Teatrının dəyərli aktyorlarından biri, ömrünü-gününü səhnə sənətinə həsr edən Miraslan Ağayev deyir ki, Azərbaycan milli teatrının tarixində sənətə vurğun olan, həyatını səhnədən kənarda təsəvvür edə bilməyən sənətkarlar ölməzlik qazanırlar: "...Klassiklərimizin həyat hekayətlərindən məlum olur ki, onların əksəriyyəti sanki səhnə üçün doğulublar. Müqayisə edilməyəcək dərəcədə bir-birindən güclü sənətkarlarımızın sənət aşiqliyinin bəhrəsidir ki, Azərbaycan teatrı yarandığı gündən məşəqqətli yol keçsə də, onun yaradıcıları heç vaxt nə yorulmayıblar, nə də unudulmayıblar..."**



Akademik səviyyəyə yüksələnədək səhnə sənətinin inkişaf yolunda can qoyanların arasında bölgə teatrlarında çalışanlar da az olmayıb. Əslində, belə demək mümkünsə, xalqımızın sevimli sənətkarları səviyyəsinə qalxanların bir çoxu elə bölgələrdə dünyaya göz açıb, orada ilk addımlarını həvəskar aktyor kimi dram dərnəklərindən atıblar.

Lənkəran Dövlət Dram Teatrının da tarixində belə sənət fədailəri çox olub. Onlardan birinin həyat və sənət yoluna qısa baxışla fikrimizi əsaslandıra bilərik.

Miraslan Əzizəli oğlu Ağayev 18 mart 1958-ci ildə Lerik rayonunun Tikəband kəndində anadan olub. 1975-ci ildə Lənkəran şəhər 2 saylı orta məktəbi bitirib. İlk əmək fəaliyyətinə də Lənkəran Dövlət Dram Teatrında səhnə maşinisti kimi başlayıb. Fitri istedadı və bu sahəyə marağı onu səhnəyə çıxarıb: teatrda hazırlanan tamaşalarda epizodik rollarda istedadını sınayıb. Hərbi xidmətini başa vurduqdan sonra Miraslan yenidən doğma kollektivə qayıdıb və yardımçı aktyor ştatında işə qəbul olunub.

1987-1992-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində ali təhsil alan Miraslan Ağayev 1975-ci ildən bugünədək Lənkəran Dövlət Dram Teatrının truppasında aktyor kimi çalışır. Bu illər ərzində 100-dən artıq rollar oynayan sənət fədaisi deyir ki, onun ifa etdiyi C.Cabbarlının "Sevil"ində Əbdüləli bəy, C.Məmmədquluzadənin "Ölülər"ində Hacı Baxşəli, M.F.Axundzadənin "Molla İbrahim Xəlil"ində Molla Həmid, V.Səmədoğlunun "Uca dağ başında" əsərində Murtuz, Ş.Qurbanovun "Özümüz bilərik" pyesində Bəbirli, V.Vişnevskinin "Nikbin faciə"sində anarxistlərin başçısı, B.Rzayevin "Qəhrəmanlıq xronikası"nda S.B.Mehmandarov, Şillerin "Qaçaqlar"ında Şveytser, B.Beyzayinin "İlan Sultan"ında Vəzir, J.B.Molyerin "Jorj Danden"ində Jorj Danden kimi yaratdığı obrazlar onun rəngarəng yaradıcılıq dəst-xətinin parlaq nümunələrindəndir.



Miraslan Ağayevin oynadığı səhnə əsərlərindən C.Məmmədquluzadənin "Ölülər" və Ü.Hacıbəylinin "Olanlardan-keçənlərdən" tamaşaları Azərbaycan Dövlət Televiziyasının "Qızıl Fondu"nda saxlanılır. O, həmçinin bir rejissor kimi "Təbii Tibbi Klinika" tamaşasına quruluş verib.

Miraslan Ağayev bir çox səhnə sənəti yaradıcılarının yolunu uğurla davam etdirir, həm də yalnız oynadığı yaddaqalan rollarla yox. O, həm də qələmə aldığı "Yaxşılığa yaxşılıq", "Altı yaşlı körpə", " TTK" kimi səhnə əsərlərinin müəllifidir.

Televiziya filmlərinə çəkilən Miraslan Ağayev "Susmuş vicdan"da Deputat, "Durnalar qayıdır"da Əsgər və Məhbus, "Sevginin göz yaşları"nda Ata, "Günəşim ol"da Qafur, "Xalxın evi"ndə Şərəf kimi yaddaqalan obrazlar yaradıb.

Peşəsinin bilicisi və fədaisi olan, buna görə də tamaşaçıların sevgisini qazanan aktyorun daha bir neçə qabiliyyəti də var. Lirik şeirlər yazan həvəskar şair rəssamlığı da bacarır. Bu da onun göstəricisidir ki, istedad və qabiliyyət onun genetik sərvətidir.

Miraslan Ağayev Lənkəranın ictimai və mədəni həyatında da fəal iştirak edir. O, dövlət əhəmiyyətli tədbirlərdə göstərilən teatrlaşdırılmış tamaşalarda, ədəbi-bədii kompozisiyalarda da uğurla çıxış edir, izləyicilərin dərin rəğbətini qazanmağa müvəffəq olur. Məhz ictimaiyyətçi olduğu və fəallığı nəzərə alınan Miraslan Ağayevə Teatr Həmkarlar Təşkilatı İdarə Heyətinin sədri kimi məsul vəzifə də həvalə edilib. Yüksək yaradıcılıq zövqü ilə çalışan aktyorun əməyi Mədəniyyət Nazirliyi, Lənkəran Şəhər İcra Hakimiyyəti və teatrın rəhbərliyi tərəfindən təşəkkürnamə, fəxri fərmanlarla qiymətləndirilib.

1984-cü ildən Azərbaycan Respublikası Teatr Xadimləri İttifaqının üzvü olan Miraslan Ağayev ömrünün elə çağını yaşayır ki, artıq onun yetirmələri sənətkarın ömür və sənət yolunu örnək bilirlər.

*M.NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● Yeni nəşrlər

# Fiziki məhdudiyyətlilərə dövlət qayğısı daimidir

## Onların cəmiyyətə inteqrasiyası üçün həyata keçirilən tədbirlər formaca müxtəlif, məzmunca eynidir: "siz bizlərdən birisiniz"

**...Həyatın sınaqları müxtəlif olur. İnsan övladı dünyaya gələndən bu sınaqlardan keçir, əzmi, iradəsi, qətiyyəti ilə arzularına qovuşur və cəmiyyətin onun zehni, yaxud fiziki əməyinə entiyacını duyduqca yaşamaq, yaratmaq əzmi bir az da artır.**














Anadangəlmə, yaxud sonradan aldığı hansısa fiziki, yaxud psixoloji zərbədən əlillik qazananların daha çox mənəvi dəstəyə ehtiyacları olur. Ona görə də dövlət və vətəndaş cəmiyyəti daim onların yanındadır.

Ulu Öndər Heydər Əliyev belə insanların istedadlı və bacarıqlı olduqlarını, belə qabiliyyətlilərin isə cəmiyyətə təqdim edilməsinin vacibliyini hər dəfə qeyd edirdi.

Fiziki məhdudiyyətli olsalar da, əzmini toplayaraq daim yüksəklərə, uğurlara doğru irəliləyənlər bir daha təsdiq edirlər ki, əlillik qüsur deyil. Onlar güclü özünəinam qarşısında məhdudiyyətin aradan qalxdığını bütün insanlığa bir mesaj kimi ünvanlayıblar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əlilliyi olan, fiziki məhdudiyyətli istedadlıların cəmiyyətə inteqrasiyası üçün müxtəlif layihələr həyata keçirir. Belə gərəkli layihələrdən biri də bu kateqoriyadan olanların qabiliyyət və istedadlıları haqqında ensiklopedik kitab-albomun nəşridir ki, bu da seriya şəklində buraxılır. "Əlillik qüsur deyil" adlı yeni nəşrdə cəmiyyətin bir parçası olan fiziki məhdudiyyətli istedadlıların qabiliyyətləri onların əl işlərindən də görünür. Kitab-albomda verilən nümunələrin timsalında deyə bilərik ki, ən əsası, insanda iradədir: "...İnsanın qəlbindəki həyat eşqi, qurub-yaratmaq istəyinin tükənməzliyidir. Əlbəttə, əlilliyi olan şəxslər hər zaman öz əməyinin bəhrəsi, güclü iradəsi ilə uğurlar qazana bilib. Amma onların cəmiyyətə inteqrasiya olunmasında ailələrinin, yaxınlarının da zəhməti az deyil. Ən böyük dəstək isə dövlət tərəfindən göstərilən xüsusi qayğı və diqqətdir".

Bu kateqoriyadan olan insanların həyata baxışları da fərqli olur, həvəs və istəkləri də. Əlilliyi olanların cəmiyyətin digər fərdləri ilə bərabər imkanlara malik olması haqqında ilk mühüm beynəlxalq sənəd 1975-ci ildə BMT-nin Baş Məclisində qəbul edilib. Həmin sənəddə əlilliyi olanlarla sağlam şəxslərin mülki və siyasi hüquqları arasında heç bir fərq qoyulmaması, dövlət tərəfindən bunun təmin olunması xüsusilə qeyd edilib.

Kitab-albomda bütün bunlar, həmçinin fiziki cəhətdən qüsurlu olan istedadlıların diqqət və qayğıdan kənarda qalmaması kimi vacib məsələlər öz əksini tapıb.

Kitab-albomda qeyd edilir ki, 2019-2021-ci illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı şəkildə təmir və yenidənqurmadan sonra istifadəyə verilib. 2021-ci il fevralın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə ölkəmizdə ən böyük reabilitasiya müəssisəsi hesab edilən, Bakının Xəzər rayonunda yerləşən Şağan Reabilitasiya Mərkəzinin də əsaslı şəkildə təmirdən sonra açılışı olub. Bütün bunlar əlilliyi olan şəxslərin sağlamlıqlarının bərpasına, onların reabilitasiya imkanlarının artırılmasına və eyni zamanda keyfiyyətli xidmətlərlə təmin olunmalarına yüksək qayğının daha bir təzahürüdür.

Dövlət başçısı bunları ümumiləşdirərək demişdir: "...Hər bir vətəndaş bizim üçün qiymətlidir. Fiziki məhdudiyyətli insanlar isə xüsusi qayğıya layiqdirlər və biz çalışırıq ki, bunu edək. Əlillərin normal həyata inteqrasiyası üçün Azərbaycanda böyük işlər görülür. Bir çox hallarda bizim təcrübəmiz başqa ölkələrdə öyrənilir..."

Bu topluda diqqətçəkən məqamlardan biri də odur ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın fiziki məhdudiyyətli, Vətən müharibəsi qaziləri, eləcə də daim sosial müdafiəyə ehtiyacı olan digər həssas qrup hesab edilən - ahıl yaşlı, tənha qoca-qarılarla keçirilən görüşlərindən bir-birindən maraqlı fotolar öz əksini tapıb.

İstedad, doğrudan da, sərhəd tanımır. İstedad və qabiliyyət ruhu, düşüncəsi sağlam, lakin fiziki qüsuru olanlar üçün sanki zülmət gecədən sabaha açılan nurlu günəşdir. İstedad belələrinin dünyaya baxışlarını dəyişir, həyata daha da bağlayır və nəyə qadir olduqlarını üzə çıxarır. Bu kitabda da məhz qabiliyyəti və bacarığı ilə cəmiyyətə inteqrasiya olunan istedadlılar toplanıb.

"DOST"un dostları", "İncəsənət nümunələrinin kataloqu", "Nəşrlərimiz", "İdman sahəsində əldə edilən uğurlar" və s. bölmələrdə əlilliyi olan istedadlıların qabiliyyətlərindən soraq verən sənət əsərləri ilə yaxından tanış olmaq mümkündür. Bir sözlə, yeni nəşr fiziki məhdudiyyətlilərin cəmiyyətə inteqrasiyası baxımından böyük əhəmiyyətə malikdir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● Xəbər

# Növbəti "Xarıbülbül" festivalının vaxtı açıqlanıb

**"Şuşa ili"nin ilk böyük tədbiri "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı olacaq. Bunu açıqlamasında Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə bildirib.**




O qeyd edib ki, tədbir Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə may ayında keçiriləcək: "İyul ayında isə Şuşada növbəti Vaqif Poeziya Günlərinin, iyul-avqust aylarında "Muğam" Televiziya Müsabiqəsinin final mərhələsinin və qaliblərin qala-konsertinin keçirilməsi planlaşdırılır. Həmçinin il ərzində "Şuşa - 2022" beynəlxalq incəsənət, "Şuşanın 4 fəsli" ("4 seasons of Shusha") adlı beynəlxalq fotoqrafiya festivallarının və s. keçirilməsi də nəzərdə tutulur".

# İnformatika fənninin qəhrəmanları Azərbaycana növbəti uğurlar qazandırıblar

## "Azercell"in dəstəyilə hazırlıq keçən şagirdlər daha 4 medala sahib olublar

Məktəblilərimiz beynəlxalq olimpiadalarda yeni uğurlara imza atmağa davam edirlər. Bu dəfə Azərbaycan məktəbliləri Qazaxıstanda təşkil olunan XVIII Beynəlxalq Jautikov Olimpiadasında biliklərini sınayaraq yüksək nəticələr əldə ediblər.




35 məktəbli ilə təmsil olunan komandamız mötəbər elm yarışında ümumilikdə 15 medal qazanıb. Bu medallardan 4-ü informatika fənni üzrə ölkəmizi təmsil edən məktəblilərin payına düşüb. Belə ki, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin 11-ci sinif şagirdi Səid Nəsibov gümüş, Təhsil Nazirliyinin tabeliyindəki Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 10-cu sinif şagirdi Fidan Hüseynova, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Fuad Qarayev, Balakən rayonu Qazbinə kənd tam orta məktəbin 10-cu sinif şagirdi Xizri Saxrayev isə bürünc medala sahib olublar.

Xatırladaq ki, 2017-ci ildən etibarən məktəblilərimizin informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi "Azercell"in Təhsil Nazirliyi və İnformatika üzrə Milli Olimpiada komandası ilə tərəfdaşlığı çərçivəsində həyata keçirilir.

"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədinə sadiq "Azercell" fəaliyyətə başladığı gündən ölkədə təhsil və maariflənmənin inkişafına, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsində mütəxəssislərin yetişdirilməsinə böyük önəm verir. Milli komandaların informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlığı nəticəsində məktəblilərimiz müxtəlif miqyaslı olimpiada və müsabiqələrdə uğurla çıxış edərək 1 qızıl, 10 gümüş, 23 bürünc olmaqla, ümumilikdə 34 medal əldə ediblər.

# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
### qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

# Lənkəran Dövlət Universiteti açıq tender (e-tender) elan edir

LOT-1. Dəftərxana və təsərrüfat mallarının alınması

Lənkəran Dövlət Universiteti büdcədənkənar vəsaiti hesabına açıq tender metodu tətbiq etməklə elektron satınalma vasitəsilə "Dəftərxana və təsərrüfat mallarının alınması" işlərinin satın alınmasını həyata keçirir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlara malik olmalıdırlar.

İddiaçılar **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

İddiaçılar aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba "ASAN ödəniş" sistemi ilə köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı LOT-1. 100 (bir yüz) manat**
**Lənkəran Dövlət Universiteti**
**Hesab: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstəribsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayışı;*
- *nizamnaməsi;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitləri;*
- *mikro, kiçik, orta və iri sahibkarlıq subyekti kateqoriyasına aid edilməsinə dair arayış.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29 mart 2022-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə **06 aprel 2022-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **07 aprel 2022-ci il saat 17:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# "Azərişıq"ASC Şuşa şəhəri ərazisində tikiləcək Qazanxanaların və 5 ədəd yaşayış binasının istilik elektrik təchizatının qarşılanması məqsədilə görüləcək işlərin satın alınması məqsədilə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1: Şuşa şəhəri ərazisində tikiləcək Qazanxanaların və 5 ədəd yaşayış binasının istilik elektrik təchizatının qarşılanması məqsədilə görüləcək işlərin satın alınması

**İştirak haqqı - 1500 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs: Namiq Heybətov (telefon: 440-39-93, daxili (92-19))

namiq.heybetov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
- *müvafiq işlər üzrə lisenziya və sertifikatları;*
- *satınalan təşkilatın müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(https://etender.gov.az/)**.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 aprel 2022-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **22 aprel 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25 aprel 2022-ci il saat 15:00-da** Mirzəağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan Polad tikişsiz boruların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 11 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

# Martın birinci ongünlüyünün ortalarında hava şəraiti dəyişəcək

Mart ayının ilk günlərində hava şəraitinin mülayim keçəcəyi, temperaturun tədricən yüksələcəyi gözlənilir. Birinci ongünlüyün ortalarında hava şəraitinin dəyişəcəyi, yağıntılı olacağı, şimal-qərb küləyinin güclənəcəyi ehtimalı var.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, mart ayında havanın orta aylıq temperaturu əsasən iqlim normasına yaxın olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı ehtimal edilir.

Bakıda və Abşeron yarımadasında havanın orta aylıq temperaturunun 6-8° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturu gecələr 5-10°, gündüzlər 10-15°, bəzi günlərdə 18-23° isti olacaq. Aylıq yağıntının miqdarı iqlim normasına yaxın, bəzi yerlərdə bir qədər çox olacağı gözlənilir (norma 20-27 millimetr).

Naxçıvan Muxtar Respublikasında havanın orta aylıq temperaturunun 4-8° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturunun gecələr 5-10° isti, bəzi günlərdə 1-6° şaxta, gündüzlər 8-13° isti, bəzi günlərdə 18-23° isti olacağı proqnozlaşdırılır. Aylıq yağıntının miqdarı iqlim normasına yaxın olacağı bildirilir (norma 22-44 millimetr).

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında havanın orta aylıq temperaturunun 1-4° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturunun gecələr 0-5° isti, bəzi günlərdə 3-8° şaxta, yüksək dağlıq ərazilərdə 10-15° şaxta, gündüzlər 5-10° isti, bəzi günlərdə 15° isti olacağı ehtimal edilir. Aylıq yağıntının miqdarı iqlim normasına yaxın olacağı ehtimalı var (norma 42-52 millimetr) .

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında havanın orta aylıq temperaturunun 5-8° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturu gecələr 5-10° isti, bəzi günlərdə 3° şaxtadan 2°-dək isti, gündüzlər 9-14° isti, bəzi günlərdə 17-22° isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarı iqlim normasına yaxın olacaq (norma 19-48 millimetr).

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın orta aylıq temperaturunun 3-6° isti olacağı gözlənilir ki, bu da iqlim norması daxilindədir. Havanın temperaturu gecələr 3-8° isti, bəzi günlərdə 4°-dək şaxta, yüksək dağlıq ərazilərdə 10-15° şaxta, gündüzlər 8-13° isti, bəzi günlərdə 17-20° isti olacağı bildirilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə bir qədər çox olacağı proqnozlaşdırılır (norma 23-90 millimetr).

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında havanın orta aylıq temperaturunun 6-8° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturunun gecələr 5-10° isti, gündüzlər 13-18°, bəzi günlərdə 23° isti olacağı ehtimalı var. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə bir qədər çox olacağı ehtimal edilir (norma 24-45 millimetr).

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında havanın orta aylıq temperaturunun 5-8° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Havanın temperaturunun gecələr 3-8°, gündüzlər 8-13°, bəzi günlərdə 16-20° isti olacağı proqnozlaşdırılır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 56-112 millimetr).

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan Plastik qapı-pəncərə profillərin və aksessuarların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 11 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsindən Hacı Mirhəşim Seyid, Eldar Əsgərov, Aqşin Məmmədzadə, Tamerlan Şeyx-Zamanov, Sarvan Sadıqov, Kəmalə Paşayeva, Sədaqət Bağırova, Ramil Cəfərov, Mahir Süleymanlı, Samir Yusifov, Ramin Cəlilov, Nəzrin Əliyeva, Mətanət Qəmbərova və Əfsanə Nəsirova şöbənin əməkdaşı Fərid İsrafilova əzizi

**TALEH ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov və cəmiyyətin kollektivi "Azərişıq" ASC-nin Mətbuat Xidmətinin rəhbəri Vaqif Mustafayevə atası

**AYDIN MUSTAFAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi

**MİNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

***Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsi tərəfindən İsmayılov Elxan Fərmayıl oğlunun adına 10.02.2021-ci ildə verilmiş VI-103/A saylı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5694
Sifariş 614
Qiyməti 40 qəpik